**“Unibank Kommersiya Bankı” Açıq Səhmdar Cəmiyyəti**

**Hər birinin nominal dəyəri 100 (bir yüz) ABŞ dolları olan 50 000 (əlli min) ədəd, faizli, sənədsiz, adlı, təmin edilməmiş istiqrazların**

# EMİSSİYA PROSPEKTİ

***Qeyd:*** *Azərbaycan Respublikasının Mərkəzi Bankı bu Emissiya Prospektində olan məlumatların düzgünlüyünə görə məsuliyyət daşımır və nəzarət orqanı kimi onu qeydiyyata almaqla yerləşdirilən qiymətli kağızlara münasibətini ifadə etmir."*

**2026**

# MÜNDƏRİCAT


**BƏYANAT** ... 3

**XÜLASƏ** ... 4

1. Xəbərdarlıqlar ... 4
2. Emitent haqqında məlumat ... 11
3. Qiymətli kağızlar haqqında məlumat ... 11
4. Risk faktorları ... 13
5. Təklif ... 16

**İSTİQRAZLAR BARƏDƏ TƏLƏB OLUNAN MƏLUMAT** ... 19

6. Əsas məlumat ... 19
7. İstiqrazlar barədə məlumat ... 21
8. Təklifin şərtləri ... 21
9. Ticarətə buraxılma və onun tənzimlənməsi ... 22
10. Kredit reytinqləri ... 27
11. Emitentin auditorları barədə məlumat ... 28
12. Emitent barədə məlumat ... 28
13. Emitentin biznesinin icmalı ... 29
14. Digər təşkilatlarda iştirak ... 32
15. Tendensiyalar barədə məlumat ... 33
16. Gəlir proqnozu ... 35
17. Emitentin idarəetmə və nəzarət orqanları ... 35
18. Emitentin nizamnamə kapitalında mühüm iştirak payına sahib olan səhmdarlar ... 39
19. Emitentin maliyyə məlumatları ... 39
20. Müqavilələr ... 46

Unibank
Sənin Bankın

# EMİSSİYA PROSPEKTİNİN TƏRTİB EDİLMƏSİNDƏ İŞTİRAK EDƏN ŞƏXSLƏR VƏ EMİSSİYA PROSPEKTİNDƏ TƏQDİM EDİLMİŞ MƏLUMATLARA DAİR BƏYANAT

## BƏYANAT

Biz, aşağıda imza edənlər,

1.1. Bu Emissiya Prospektini tərtib etməzdən öncə Azərbaycan Respublikası Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin 27.01.2016-cı il tarixli, 05 saylı Qərarı ilə təsdiq edilmiş "Emissiya prospektinə və informasiya memorandumuna dair tələblər haqqında Qaydalar" ilə tanış olduğumuzu təsdiq edirik.

1.2. "Unibank" Kommersiya Bankı" ASC-nin hər birinin nominal dəyəri 100 (bir yüz) ABŞ dolları olan 50 000 (əlli min) ədəd, faizli, sənədsiz, adlı, təmin edilməmiş istiqrazların Emissiya prospektinə daxil edilən bütün məlumatlar həqiqi faktlara əsaslanır, heç bir faktın gizlədilməmişdir və bunun üçün bütün lazımi tədbirlər görülmüşdür.

**"Unibank Kommersiya Bankı" Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinin Sədri v.m.i.e.**

**Qədirov Heybət Həsənağa oğlu** ____________________ **10.04.2026**

**"Unibank Kommersiya Bankı" Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinin üzvü / Baş Maliyyə İnzibatçısı:**

**Zeynalov Faiq Vahab oğlu** ____________________ **10.04.2026**

# XÜLASƏ

## 1. Xəbərdarlıqlar

Aşağıdakı məzmunda xəbərdarlıq:

- Bu sənəd emissiya prospektinin giriş hissəsidir;
- İstiqrazlara investisiya etmək barədə hər hansı bir qərar investorun emissiya prospektini oxuduqdan sonra həyata keçirilməlidir;
- Emissiya prospektində olan məlumatların yanlış, qeyri-dəqiq, ziddiyyətli olduğu və ya qiymətli kağızlara investisiya edib-etməmək barədə qərar verən investorlara kömək etmək məqsədilə əsas informasiyanın verilmədiyi zaman emissiya prospektini hazırlamış şəxslər mülki məsuliyyət daşıyırlar.

## 2. Emitent haqqında məlumat

### 2.1 Emitentin tam adı:

"Unibank Kommersiya Bankı" Açıq Səhmdar Cəmiyyəti (bundan sonra "Emitent").

### 2.2 Emitentin olduğu yer və təşkilati-hüquqi forması, emitentin qeydiyyatda olduğu ölkə:

Azərbaycan Respublikası, Bakı şəhəri, AZ1014, R.Behbudov küçəsi, 55, məhəllə 384. Açıq Səhmdar Cəmiyyəti. Emitent 27.07.1992-ci il tarixində Azərbaycan Respublikasının Milli Bankı (hazırkı Azərbaycan Respublikasının Mərkəzi Bankı) tərəfindən dövlət qeydiyyatına alınmışdır və ona 18.03.2005-ci il tarixində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən 72 saylı dövlət qeydiyyatı haqqında şəhadətnamə verilmişdir. Emitent Azərbaycan Respublikası Prezidentinin 30.04.2007-ci il tarixli Fərmanına əsasən "bir pəncərə" prinsipi ilə 08.08.2008-ci il tarixində Azərbaycan Respublikasının Vergilər Nazirliyi tərəfindən dövlət qeydiyyatına alınmışdır.

### 2.3 Emitentə və onun əməliyyat apardığı sahələrə təsir edən məlum tendensiyaların təsviri:

Emitentin fəaliyyət göstərdiyi bank sektoru son illərdə makroiqtisadi sabitlik, rəqəmsal transformasiyanın sürətlənməsi, tənzimləyici çərçivənin təkmilləşdirilməsi və artan rəqabət mühiti kimi əsas tendensiyaların təsiri altında inkişaf etməkdədir. Qeyd olunan amillər bankların biznes modellərinin optimallaşdırılmasını, əməliyyat effektivliyinin artırılmasını və müştəriyönümlü xidmətlərin genişləndirilməsini şərtləndirir.

**Makroiqtisadi faktorlar və iqtisadi mühit**

Azərbaycan Respublikasının iqtisadiyyatı 2025-ci il ərzində nisbi makroiqtisadi sabitlik nümayiş etdirmişdir. Rəsmi statistik göstəricilərə əsasən, 2025-ci ilin yanvar–dekabr aylarında ölkənin ümumi daxili məhsulu (ÜDM) 129 094,1 milyon manat təşkil etmiş və əvvəlki ilin eyni dövrü ilə müqayisədə 1,4% artım qeydə alınmışdır.

İqtisadi artımın strukturunda neft-qaz sektoru üzrə əlavə dəyərdə 2,1% azalma müşahidə olunduğu halda, qeyri-neft, qaz sektorunda 2,7% artım qeydə alınmışdır. Bu göstəricilər

iqtisadi artımın əsas etibarilə qeyri-neft sektoru hesabına formalaşdığını və iqtisadiyyatın diversifikasiyası istiqamətində müsbət dinamikanın davam etdiyini göstərir.
Eyni dövrdə istehlak qiymətləri indeksi 5,6% səviyyəsində olmuşdur ki, bu da inflyasiya təzyiqlərinin nisbətən nəzarət altında saxlandığını göstərir. Qeyd olunan makroiqtisadi göstəricilər — mülayim ÜDM artımı, qeyri-neft sektorunun genişlənməsi və sabit inflyasiya mühiti — ümumilikdə bank sektorunda sabit əməliyyat mühitinin formalaşmasına şərait yaradır.
Bu makroiqtisadi sabitlik kredit portfellərinin, xüsusilə mikro, kiçik və orta sahibkarlıq (SME) seqmentinin inkişafını dəstəkləməklə yanaşı, maliyyə xidmətlərinə tələbin artmasına və bank sektorunun dayanıqlı genişlənməsinə əlverişli şərait yaradır.

**Rəqəmsallaşma və texnoloji transformasiya**
Bank sektorunda əsas tendensiyalardan biri rəqəmsallaşmanın dərinləşməsi və innovativ texnoloji həllərin geniş tətbiqidir. Emitent bu istiqamətdə "rəqəmsal və texnoloji transformasiyanın sürətləndirilməsi, innovativ həllər və BaaS (Banking-as-a-Service) inteqrasiyaları vasitəsilə rəqəmsal inkişafda sıçrayış" strateji prioritetini müəyyən etmişdir.
Mobil və internet bankçılıq platformalarının inkişafı, 7/24 rəqəmsal xidmət kanallarının genişləndirilməsi və rəqəmsal filial həllərinin tətbiqi müştəri təcrübəsinin yaxşılaşdırılmasına, xidmətlərin əlçatanlığının artırılmasına və əməliyyat xərclərinin optimallaşdırılmasına xidmət edir. Bu yanaşma həm pərakəndə, həm də korporativ və mikro biznes seqmentləri üzrə xidmət keyfiyyətinin yüksəldilməsini dəstəkləyir.
Eyni zamanda, data analitika və data mining texnologiyalarının tətbiqi real vaxt rejimində məlumatların emalına və təhlilinə imkan yaradır, risklərin daha operativ idarə olunmasını və strateji qərarların daha dəqiq əsaslandırılmasını təmin edir. API əsaslı BaaS ekosisteminin inkişafı isə bank xidmətlərinin daha geniş texnoloji platformalara inteqrasiyasını və yeni rəqəmsal biznes modellərinin formalaşmasını dəstəkləyir.

**İstehlakçı etimadı və informasiya təhlükəsizliyi**
Rəqəmsal əməliyyatların həcminin artması müştəri məlumatlarının qorunması və informasiya təhlükəsizliyi üzrə tələbləri əhəmiyyətli dərəcədə gücləndirmişdir. Bu tendensiya fonunda banklar tərəfindən IT infrastrukturunun gücləndirilməsi, kiber təhlükəsizlik sistemlərinin təkmilləşdirilməsi və rəqəmsal dələduzluğun qarşısının alınmasına yönəlmiş texnoloji həllərin tətbiqi prioritet istiqamətlərdən biri kimi çıxış edir.
Emitent əməliyyat sistemlərinin dayanıqlılığının artırılması, fasiləsiz xidmətin təmin olunması və əməliyyat gecikmələrinin minimuma endirilməsi məqsədilə qabaqcıl təhlükəsizlik və monitorinq sistemlərini tətbiq edir. Eyni zamanda, müştərilərlə rəqəmsal kanallar üzərindən kommunikasiya imkanlarının genişləndirilməsi və korporativ sosial məsuliyyət təşəbbüsləri müştəri etimadının gücləndirilməsinə xidmət edir.

**Rəqabət mühiti və sektor dinamikası**
Azərbaycan bank sektoru artan rəqabət, məhsul və xidmətlərin diversifikasiyası və rəqəmsal bankçılıq həllərinin genişlənməsi ilə xarakterizə olunur. Bu mühit bankları daha çevik biznes modellərinə keçməyə, innovativ texnologiyaları sürətlə tətbiq etməyə və müştəri yönümlü strategiyaları gücləndirməyə təşviq edir.
Eyni zamanda, faiz dərəcələrinin, likvidlik şəraitinin və maliyyələşmə xərclərinin dəyişkənliyi bankların qiymət siyasətinə və risk idarəetmə strategiyalarına birbaşa təsir göstərir. Bu

faktorlar sektor daxilində rəqabətin intensivliyini artırmaqla yanaşı, dayanıqlı gəlir modellərinin formalaşdırılmasını zəruri edir.

### 2.4 Emitentin digər hüquqi şəxslərdə mövqeyinin qısa təsviri:

"Unicapital" İnvestisiya Şirkəti Açıq Səhmdar Cəmiyyəti (səhmdar). Emitentin ASC-nin nizamnamə kapitalında payı 100% təşkil edir. Ünvan: Azərbaycan Respublikası, Bakı şəhəri, Rəşid Behbudov küç. 55, 384-cü məhəllə. VÖEN: 1401258741

"Unicapital İnvestisiya Şirkəti" ASC, lisenziya əsasında, əsas və yardımçı investisiya xidmətləri göstərir, o cümlədən yerli və xarici bazarlarda qiymətli kağızlarla əməliyyatlar, anderraytinq, investisiya məsləhəti və portfel idarəçiliyi sahələrində fəaliyyət göstərir. Unicapitalda iştirak, emitent üçün kapital bazarları istiqamətində fəaliyyətin genişləndirilməsi, bazara birbaşa çıxış imkanının olması, bank və investisiya xidmətləri arasında sinerjinin yaradılması və müştərilərə daha geniş maliyyə məhsulları təklif edilməsi baxımından əhəmiyyət kəsb edir. "Unibank" KB ASC-nin nizamnamə kapitalındakı payı 100 faiz təşkil etdiyindən, "Unicapital İnvestisiya Şirkəti" ASC-nin ali idarəetmə orqanında qərarların qəbul edilməsi zamanı səsvermə hüququ həmin iştirak payına mütənasib olaraq tam həcmdə Banka məxsusdur. Əlavə olaraq, "Unicapital İnvestisiya Şirkəti" ASC rəhbərliyində "Unibank" KB ASC-nin rəhbərliyindən şəxslər təmsil olunur.

"MilliKart" Məhdud Məsuliyyətli Cəmiyyəti (payçı). Emitentin MMC-nin nizamnamə kapitalında payı 6.67 % təşkil edir. Ünvan: Azərbaycan Respublikası, Bakı şəh., Alı Mustafayev, 5A. VÖEN: 1400980591

S.W.I.F.T (Ümumdünya Banklararası Maliyyə Telekommunikasiya Cəmiyyəti). SWIFT korporativ üzvlüyə malik olan və təhlükəsiz maliyyə mesajlaşma xidmətləri üzrə dünyanın aparıcı provayderidir. Emitentin onun nizamnamə kapitalında payı 3,43% təşkil edir. SWIFT-in mesajlaşma xidmətləri dünyanın 200-dən çox ölkəsində və ərazilərində 11000-dən çox maliyyə qurum tərəfindən istifadə olunur və etibarlıdır. SWIFT-in standartlaşdırma sahəsində rolu banklar və digər maliyyə institutları arasında təhlükəsiz, maneəsiz və avtomatlaşdırılmış maliyyə əlaqələrini təmin etməkdir. Ünvan: 1, Avenue Adèle, B-1310 La Hulpe (Belçika) RPM Nivelles – VAT BE 0413.330.856 e-mail: shareholding@swift.com Fax: +32 2 655 4036; Tel: +32 2 655 4490 (https://www.swift.com)

Azərbaycan Kredit Bürosu MMC. Emitentin MMC-nin nizamnamə kapitalında payı 12.50 % təşkil edir. Ünvan: Bakı şəhəri, S.Vurğun küçəsi 43, VÖEN 1305349901.

Azərbaycan Banklar Assosiyasiyası (ABA) - üzv

Azərbaycan Respublikasının Ticarət-Sənaye Palatası - üzv

Azərbaycanda Amerika Ticarət Palatası (AMCHAM) - üzv

Alman Azərbaycan Xarici Ticarət Palatası İctimai Birliyi – üzv

**Emitentin qrupda olan şəxslərdən asılı olduğu təqdirdə bu barədə qeyd:**
Belə bir hal mövcud deyil.

### 2.5 Gəlir proqnozunun mövcud olduğu zaman bu barədə qeyd:

Mövcud deyil.

**2.6 Audit edilmiş maliyyə məlumatlarına dair auditorun rəyinin qısa təsviri:**

KMPG Audit Azərbaycan tərəfindən "Unibank" Kommersiya Bankı" Açıq Səhmdar Cəmiyyətinin ("Bank") və onun törəmə müəssisəsinin ("Qrup") 31 dekabr 2023-cü və 31 dekabr 2024-cü il tarixlərinə maliyyə vəziyyəti haqqında konsolidə edilmiş hesabatdan və həmin tarixdə tamamlanan il üzrə mənfəət və ya zərər və sair məcmu gəlir, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında konsolidə edilmiş hesabatlardan, eləcə də əsas mühasibat uçotu siyasətləri və sair izahedici məlumatları əhatə edən qeydlərdən ibarət olan konsolidə edilmiş maliyyə hesabatlarının auditi aparıldı.

Kənar audit şirkətinin rəyinə görə, konsolidə edilmiş maliyyə hesabatları bütün əhəmiyyətli aspektlər baxımından Qrupun 31 dekabr 2023-cü və 31 dekabr 2024-cü il tarixinə maliyyə vəziyyətini və həmin tarixdə tamamlanan il üzrə konsolidə edilmiş maliyyə nəticələrini və konsolidə edilmiş pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq düzgün əks etdirir.

2023-cü il üzrə audit hesabatına əsasən, "Unibank" KB ASC-nin ümumi aktivləri 1 631 milyon AZN təşkil etmişdir ki, bu da əvvəlki illə müqayisədə 17% artım deməkdir. Xalis kredit portfeli də 17% artaraq ilin sonuna 993 milyon AZN-ə çatmışdır. 31 dekabr 2023-cü il tarixinə Bankın ümumi kapitalı 145,5 milyon AZN təşkil etmişdir ki, bu da 2022-ci maliyyə ilinin nəticələri ilə müqayisədə 27% artım deməkdir. Hesabat ili üzrə ümumi məcmu gəlir 31 milyon AZN təşkil etmişdir.

2024-cü ilin audit hesabatına əsasən qrupun ümumi aktivləri 7% artaraq 1 752 milyon AZN olmuşdur. Xalis kredit portfeli 134 milyon AZN artaraq 1 127 milyon AZN olmuşdur. Bankın digər banklar və maliyyə institutlarından cəlbetmələri ötən il ilə müqayisədə 5 dəfə artaraq 118 milyon AZN olmuşdur. Kapital 11% artaraq 161 milyon AZN olmuşdur. 2024-cü il üzrə bankın ümumi məcmu gəlirləri 16.6 milyon manat olmuşdur.

**2.7 Son üç maliyyə ili ərzində hər maliyyə ili üzrə seçilmiş maliyyə məlumatı əsasında emitentin maliyyə vəziyyətinin əsas göstəriciləri. Aralıq dövrlər üçün seçilmiş maliyyə məlumatı verildiyi zaman əvvəlki maliyyə ilində eyni dövr barədə müqayisəli məlumatlar verilməlidir. Son dərc olunmuş audit edilmiş maliyyə hesabatlarından bəri emitentin fəaliyyətində dəyişikliyin olub-olmaması barədə məlumat. Aralıq dövrlər üçün seçilmiş maliyyə məlumatı verildiyi zaman əvvəlki maliyyə ilində eyni dövr barədə müqayisəli məlumatlar verilməlidir.**

Aşağıdakı cədvəldə 2022, 2023 və 2024-cü illər üzrə maliyyə məlumatları konsolidasiya edilmiş maliyyə hesabatları əsasında təqdim edilmişdir və qeyd olunan maliyyə hesabatları audit edilmişdir.

*(min Azərbaycan manatı)*

| | **31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə (audit edilmiş)** | **31 dekabr 2023-ci il tarixində başa çatmış il üzrə (audit edilmiş)** | **31 dekabr 2024-ci il tarixində başa çatmış il üzrə (audit edilmiş)** |
|---|---|---|---|
| Faiz gəlirləri | 159 679 | 206 499 | 227 826 |
| Faiz xərcləri | - 55 761 | - 71 789 | -77 537 |
| **Ehtimal olunan kredit zərərlərindən əvvəl xalis faiz gəliri** | **103 918** | **134 710** | **150 289** |
| Maliyyə aktivləri üzrə kreditin zərər xərci | - 12 350 | - 34 938 | -45 571 |
| **Xalis faiz gəliri** | **91 568** | **105 639** | **104 718** |
| Qeyri-faiz gəliri | 65 894 | 113 397 | 127 519 |

| | | | |
|---|---|---|---|
| Qeyri-faiz xərcləri | - 156 267 | -170 374 | -210 860 |
| **Vergilər ödənilənədək mənfəət (zərər)** | **1 195** | **42 795** | **21 377** |
| Mənfəət vergisi xərci | - 6 255 | - 11 724 | -4 798 |
| **İl üzrə mənfəət** | **- 5 060** | **31 071** | **16 579** |
| İl üzrə digər ümumi gəlir, vergidən sonra | - 2 430 | - 78 | 286 |
| **İl üzrə cəmi ümumi gəlir** | **- 7 490** | **30 993** | **16 865** |
| **Cəmi aktivlər** | **1 397 566** | **1 631 226** | **1 751 930** |
| Cəmi öhdəliklər | 1 283 088 | 1 485 755 | 1 591 108 |
| **Cəmi kapital** | **114 478** | **145 471** | **160 822** |
| **Cəmi öhdəliklər və kapital** | **1 397 566** | **1 631 226** | **1 751 930** |
| **Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri** | **254 951** | **286 965** | **227 158** |

*(min Azərbaycan manatı)*

| | 31 mart 2025-ci il 1-ci rüb üzrə (audit edilməmiş) | 31 dekabr 2025-ci il tarixində başa çatmış il üzrə (audit edilməmiş) | 31 mart 2026-cı il 1-ci rüb üzrə (audit edilməmiş) |
|---|---|---|---|
| Faiz gəlirləri | 58 026 | 251 233 | 69 578 |
| Faiz xərcləri | - 22 075 | - 101 921 | - 29 931 |
| **Ehtimal olunan kredit zərərlərindən əvvəl xalis faiz gəliri** | **35 951** | **149 312** | **39 646** |
| Maliyyə aktivləri üzrə kreditin zərər xərci | - 10 602 | - 33 914 | - 8 976 |
| **Xalis faiz gəliri** | **25 348** | **115 397** | **30 670** |
| Qeyri-faiz gəliri | 27 219 | 146 290 | 35 606 |
| Qeyri-faiz xərcləri | - 48 983 | - 227 042 | - 56 817 |
| **Vergilər ödənilənədək mənfəət (zərər)** | **3 585** | **34 644** | **9 459** |
| Mənfəət vergisi xərci | - 785 | - 8 863 | - 1 400 |
| **İl üzrə mənfəət** | **2 800** | **25 781** | **8 059** |
| İl üzrə digər ümumi gəlir, vergidən sonra | - | - | - |
| **İl üzrə cəmi ümumi gəlir** | **2 800** | **25 781** | **8 059** |
| **Cəmi aktivlər** | **1 803 383** | **2 132 917** | **2 196 864** |
| Cəmi öhdəliklər | 1 633 284 | 1 940 120 | 1 995 338 |
| **Cəmi kapital** | **170 099** | **192 796** | **201 526** |
| **Cəmi öhdəliklər və kapital** | **1 803 383** | **2 132 917** | **2 196 864** |
| **Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri** | **225 239** | **385 363** | **363 794** |

## 2.8 Emitentin ödəmə qabiliyyətinin qiymətləndirilməsinə təsir edən ən son hadisələr:

### Qlobal və Yerli İqtisadi Dinamikalar

2025-ci il ərzində qlobal iqtisadi mühitdə inflyasiya təzyiqlərinin davam etməsi və bəzi regionlarda artım meyllərinin müşahidə olunması fonunda mərkəzi banklar tərəfindən ehtiyatlı pul siyasəti yanaşması qorunmuşdur. Faiz dərəcələrinin nisbətən yüksək səviyyədə saxlanılması və maliyyə şərtlərinin sərt qalması qlobal iqtisadi aktivliyə təsir edən əsas amillərdən olmuşdur.

2026-cı il üzrə gözləntilərə əsasən, qlobal iqtisadi mühitdə inflyasiya risklərinin davam edəcəyi, eyni zamanda geosiyasi qeyri-müəyyənliklərin yüksək olaraq qalacağı proqnozlaşdırılır. Xüsusilə Yaxın Şərq regionunda artan gərginliklər, o cümlədən İran və ABŞ arasında

qarşıdurma riskləri enerji bazarlarında qeyri-müəyyənliyi artırmaqda davam edir. Bu amillər qlobal maliyyə bazarlarında dəyişkənliyin qorunmasına səbəb ola bilər.

**Enerji Bazarları və İqtisadi Artım**

2025-ci il ərzində qlobal enerji bazarlarında müşahidə olunan dəyişkənlik və qiymət artımı Azərbaycan üçün əlavə valyuta daxilolmaları və fiskal gəlirlər formalaşdırmışdır. Neft və qaz ixracından əldə olunan gəlirlər ölkənin makroiqtisadi sabitliyinin qorunmasında mühüm rol oynamışdır.

2026-cı il üzrə gözləntilərə əsasən, geosiyasi risklərin davam etməsi fonunda enerji qiymətlərində dəyişkənlik və artım meyllərinin qorunacağı ehtimal olunur. Bu isə qısamüddətli perspektivdə enerji ixracatçısı ölkələr üçün müsbət təsir yaratsa da, uzunmüddətli perspektivdə qeyri-müəyyənlikləri artıran amil kimi qalır.

**Yerli İqtisadiyyatın Güclənməsi**

2025-ci ildə Azərbaycan iqtisadiyyatında makroiqtisadi sabitlik qorunmuş, iqtisadi artım əsasən qeyri-neft sektorunun inkişafı hesabına davam etmişdir. Dövlət və özəl investisiyaların davam etməsi, infrastruktur layihələrinin icrası və biznes mühitinin dəstəklənməsi iqtisadi aktivliyi stimullaşdıran əsas amillər olmuşdur.

Xarici ticarət dövriyyəsinin genişlənməsi və enerji ixracından əldə olunan gəlirlərin artması ölkənin fiskal və xarici balans göstəricilərinə müsbət təsir göstərmişdir. Bununla yanaşı, qeyri-neft sektorunda istehsal və xidmət sahələrinin genişlənməsi iqtisadiyyatın şaxələndirilməsi prosesini dəstəkləmişdir.

Eyni zamanda, 2025-ci il ərzində qlobal qiymət artımlarının və idxal inflyasiyasının təsiri ilə daxili qiymət səviyyəsinə təzyiqlər müşahidə olunmuşdur. Bununla belə, həyata keçirilən iqtisadi və monetar siyasət tədbirləri makroiqtisadi sabitliyin qorunmasına yönəlmişdir.

2026-cı il üzrə gözləntilərə əsasən, qeyri-neft sektorunun inkişafının davam edəcəyi, investisiya aktivliyinin qorunacağı və iqtisadi artımın davamlı xarakter alacağı proqnozlaşdırılır. Bununla yanaşı, inflyasiya təzyiqləri və xarici risk faktorlarının iqtisadi mühitə təsir imkanlarının qalacağı gözlənilir.

Aşağıdakı cədvəldə diskont edilməmiş öhdəliklər əsasında Bankın maliyyə öhdəlikləri ödəniş tarixinə qalmış müddətlər üzrə təqdim edilmişdir:

| **31 dekabr 2025-ci il tarixində başa çatmış il üzrə** | **3 ayadək** | **3-12 ay** | **1-5 il** | **5 ildən çox** | **Cəmi** |
|---|---|---|---|---|---|
| ARMB və dövlət təşkilatları | 0 | 0 | 0 | 0 | **0** |
| Kredit təşkilatları | 116585 | 39117 | 72577 | 108952 | **337232** |
| Müştərilər | 742648 | 508448 | 122574 | 4268 | **1377937** |
| Buraxılmış borc qiymətli kağızları | 0 | 0 | 64912 | 6800 | **71712** |
| Digər | 22881 | 0 | 0 | 130359 | **153240** |
| **Cəmi maliyyə öhdəlikləri** | **882114** | **547565** | **260062** | **250379** | **1940120** |

| **31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə** | **3 ayadək** | **3-12 ay** | **1-5 il** | **5 ildən çox** | **Cəmi** |
|---|---|---|---|---|---|
| ARMB və dövlət təşkilatları | 0 | 0 | 0 | 0 | **0** |
| Kredit təşkilatları | 116801 | 6784 | 14295 | 71139 | **209019** |
| Müştərilər | 633538 | 431365 | 139756 | 0 | **1204660** |

| | | | | | |
|---|---|---|---|---|---|
| Buraxılmış borc qiymətli kağızları | 0 | 0 | 49089 | 18700 | **67789** |
| Digər | 17246 | 0 | 0 | 93983 | **111229** |
| **Cəmi maliyyə öhdəlikləri** | **767585** | **438150** | **203140** | **183822** | **1592697** |

| 31 dekabr 2023-cü il tarixində başa çatmış il üzrə | 3 ayadək | 3-12 ay | 1-5 il | 5 ildən çox | Cəmi |
|---|---|---|---|---|---|
| ARMB və dövlət təşkilatları | 0 | 8681 | 0 | 0 | **8681** |
| Kredit təşkilatları | 21752 | 4893 | 15717 | 66573 | **108936** |
| Müştərilər | 672848 | 458194 | 84849 | 0 | **1215892** |
| Buraxılmış borc qiymətli kağızları | 0 | 16226 | 44424 | 0 | **60650** |
| Digər | 17382 | 0 | 0 | 30289 | **47671** |
| **Cəmi maliyyə öhdəlikləri** | **711983** | **487995** | **144991** | **96862** | **1441830** |

### 2.9 Emitentin əsas fəaliyyətlərinin təsviri:

Emitent müştəriyönümlü bank olaraq müxtəlif regionlarda müştərilərin tələbatını nəzərə alır və qlobal xarakter daşıyan, eyni zamanda lokal bazarlar üçün adaptasiya olunmuş, çoxsahəli kredit məhsulları və maliyyə xidmətləri təqdim edir. Bank aşağıdakı əsas bank xidmətlərini təqdim edir:

- Bank hesablarının açılması
- İstehlak və biznes kreditləri
- Debet və kredit kartları
- Əmanətlər və depozit seyfləri
- Ani pul köçürmələri
- Rəqəmsal pərakəndə və korporativ bankçılıq xidmətləri
- POS-terminal və Smart Kassa xidmətləri
- Xəzinədarlıq xidmətləri
- VIP müştəri xidməti

Bankın müştəriləri Azərbaycan Respublikasının rezidenti olan fiziki şəxslər, Azərbaycan Respublikasının rezidenti olan hüquqi şəxslər, yerli və xarici maliyyə təşkilatlarıdır.

### 2.10 Mühüm iştirak payına sahib olan şəxslər tərəfindən emitentə nəzarətin xüsusiyyəti:

| Təsisçilər: | Nizamnamə kapitalında mayaların miqdarı |
|---|---|
| Eyvazov Fuad Camal oğlu | 0.0008 % |
| Qəribli İlkin Eldar oğlu | 1.7685 % |
| Qəribov Eldar Mahmud oğlu | 94.0763 % |
| Hüseynov Faiq Arif oğlu | 0.3035 % |
| Quliyev Emin Natiq oğlu | 2.973 % |

| | |
|---|---|
| Əliyeva Səxavət Bəylər qızı | 0.0071 % |
| İvaşenko İnna Vladimirovna | 0.8707 % |

Mühüm iştirak payına sahib olan şəxslər nizamnamə ilə müəyyən olunmuş və qanunvericiliyə zidd olmayan qaydada cəmiyyətə nəzarət edirlər.
Emitentin ümumi fəaliyyətinə nəzarəti Səhmdarların Ümumi Yığıncağı və Müşahidə Şurası həyata keçirir. Azərbaycan Respublikasının "Banklar haqqında" Qanununun 40.3-cü bəndinə əsasən bankların aidiyyəti şəxslərə digər şəxslərdən fərqli olaraq güzəştli şərtlərlə bank xidmətlərinin göstərilməsi qadağandır. Eyni zamanda, Mülki Məcəllənin 49-1-ci maddəsində aidiyyəti şəxslərlə əqdlərin bağlanması qaydası nəzərdə tutulmuşdur.
Ümumi yığıncaqlararası dövrdə Emitentin idarə olunmasına və işinə nəzarəti Səhmdarların Ümumi Yığıncağı tərəfindən Emitentin səhmdarlarından və ya kənar şəxslərdən 3 (üç) il müddətinə 3 (üç) nəfərdən az olmamaqla, tək sayda üzvlərdən təyin edilmiş Müşahidə Şurası həyata keçirir.

## 3. Qiymətli kağızlar haqqında məlumat

**3.1 İstiqrazların növü:** Faizli, təmin edilməmiş, sənədsiz, adlı istiqrazlar

**3.2 İstiqrazların valyutası**: ABŞ dolları

**3.3 İstiqrazların təsbit olunan məhdudiyyətlər**: İstiqrazlar subordinasiya borc öhdəliyi şərtilə buraxılır. "Bank kapitalının və onun adekvatlığının hesablanması Qaydaları"nın 2.1.11- ci maddəsinə əsasən subordinasiya borc öhdəlikləri, emissiya şərtlərinə görə ödəmə vaxtı çatdıqda ödənilən, bankın aktivlərinin girovu ilə təmin edilməyən, mülkiyyətçisinin tələbi ilə geri alınmayan, son ödəmə müddəti başa çatana kimi bu öhdəlik üzrə ödəmə (faiz və ya əsas borc) baş tutmadığı təqdirdə bankı müflis elan etmək və ya ləğv etmək hüququ verməyən, bank ləğv edilərkən onların ödənilməsi əmanətçilərin və bankın digər kreditorlarının tələbləri tam ödənildikdən sonra icra olunan öhdəliklərdir. Emitent istiqrazlar üzrə faiz ödənişlərini təxirə salmaq hüququna malikdir. Emitentin kapital adekvatlığı göstəricilərinin Mərkəzi Bankın qaydaları ilə müəyyən göstəricilərinin minimum səviyyədən aşağı olduğu halda Emitent istiqrazlar üzrə öhdəliklərinin icrasını təxirə salmaq hüququna malikdir. İstiqrazlar bank və ya banka aidiyyəti olan şəxs tərəfindən əldə edilmir və ya bu elementlərin alışı birbaşa və ya dolayı yolla bank tərəfindən maliyyələşdirilmir. Bankın rezolyusiyası çərçivəsində Mərkəzi Bankın qərarı əsasında bu elementlər silinə və ya adi səhmə çevrilə bilər. İstiqrazlar üzrə öhdəliklərin əsas məbləğinin vaxtından əvvəl ödənilməsi Mərkəzi Bankın razılığı əsasında icra edilir.

**3.4 İstiqrazların təsbit olunmuş hüquqların təsviri**:

- Özünə məxsus istiqrazların vəziyyəti barədə məlumat almaq üçün birbaşa Milli Depozit Mərkəzinə (bundan sonra "Mərkəzi Depozitar") müraciət etmək;
- İstiqrazların ödənilməsi zamanı istiqrazların nominal dəyərini Emitentdən almaq;
- İstiqrazların tədavül müddəti ərzində istiqrazların nominal dəyərindən illik bu Prospektin 3.5-ci bəndində müəyyən edilmiş qaydada 8 (səkkiz) faiz həcmində faiz almaq;
- Emitentin ləğvi, yaxud yenidən təşkili barədə qərar qəbul edildikdə, habelə Emitent müflis elan olunduqda, əmanətçilərin və bankın digər kreditorlarının tələbləri tam ödənildikdən sonra istiqrazların nominal dəyərinin və həmin nominal dəyərə hesablanmış, lakin ödənilməmiş faizləri tələb etmək;

- Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş subordinasiya borc öhdəliklərinin mahiyyətinə zidd olmayan digər hüquqlar.

**3.5 İstiqrazların faiz dərəcəsi. İstiqrazların faizlərinin və dəyərinin ödənilmə tarixi və müddəti:**
İstiqrazlar üzrə illik faiz dərəcəsi 8 (səkkiz) faiz təşkil edir. İstiqrazlar üzrə ödənilməli olan faizlər istiqrazların tədavül müddətində istiqrazların yerləşdirildiyi tarixdən etibarən 6 (altı) il müddətində hər 3 (üç) aydan bir (bir ayda günlərin sayı 30 gün olaraq götürməklə) ödəniləcəkdir. Ödəniş tarixi qeyri-iş gününə təsadüf etdikdə, faiz ödənişi növbəti iş günü ödənilir. Ödənişlər bank hesabları vasitəsilə nağdsız qaydada həyata keçirilir. İstiqrazların nominal dəyəri sonuncu ödəniş ilə birlikdə ödəniləcəkdir.

**3.6 Təmin edilmiş istiqrazlar üzrə təminatın təsviri və şərtləri:**
İstiqrazlar təmin edilməmiş formada buraxılır.

**3.7 İstiqrazların geri satın alınma şərtləri**: Tədavül müddəti ərzində Emitentin istiqrazları geri satın alınma öhdəliyi yoxdur. Lakin Bankın təklifi və müraciəti ilə istiqrazlar geri satınalına bilər.

**3.8 Gəlirin qısa formada hesablama metodunu göstərməklə gəlir göstəricisi:**
İstiqrazlar üzrə illik faiz dərəcəsinin gəlirliliyi 8 (səkkiz) faiz təşkil edir. İstiqrazlar üzrə toplanmış faizlərin hesablanması aşağıdakı düstura uyğun olaraq aparılır:

$$TF = \frac{\left(\frac{N * D * G}{360}\right)}{100}$$

**Burada:**

**TF** – Bir istiqraz üzrə toplanmış faizlər

**N** – Bir istiqrazın nominal dəyəri: 100 (bir yüz) ABŞ dolları

**D** – İstiqrazların illik faiz dərəcəsi: 8 (səkkiz)

**G** – İstiqrazlar üzrə faiz ödənişi dövrünün müddəti: bir ayda günlərin sayı 30 gün olaraq götürməklə hər 3 (üç) aydan bir

**3.9 İstiqrazların mülkiyyətçisinin təmsilçisinin adı:** Mövcud deyil.

**3.10 Təmin edilmiş istiqrazlar təklif olunduqda təminatın dəyərinin istiqrazların və onlar üzrə faizlərin ödənişinə təsiri barədə aydın və ətraflı məlumat:**
İstiqrazlar təmin edilməmiş formada buraxılır.

**3.11 İstiqrazların tənzimlənən bazarda ticarətə buraxılması barədə emitent tərəfindən müraciətin edilməsinin nəzərdə tutulub-tutulmaması barədə məlumat. Belə bir müraciətin edilməsi nəzərdə tutulduğu halda istiqrazların ticarətə buraxılacağı tənzimlənən bazar barədə məlumat və ticarətə buraxılmanın şərtləri:**
İstiqrazların ilkin yerləşdirilməsi kütləvi təklif üsulu ilə "Bakı Fond Birjası" QSC-nin ticarət platformasında həyata keçiriləcək. İstiqrazların ticarətə buraxılması üçün icazə ilə bağlı müraciət Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən buraxılış dövlət qeydiyyatına alındıqdan sonra ediləcəkdir.

BFB 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 21 iyul 2000-ci il tarixli "fond birjası fəaliyyəti"ni həyata keçirməyə icazə verən 5 saylı müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin peşəkar təşkilatçısı kimi fəaliyyət göstərir. BFB aşağıdakı bazarların ticarətini təşkil edir:

- dövlət qiymətli kağızları bazarı
- korporativ qiymətli kağızlar bazarı
- törəmə maliyyə alətləri bazarı

**Ticarətə buraxılmanın şərtləri:**
"Bakı Fond Birkası" QSC-də Qiymətli Kağızların Ticarətə Qəbulu, Listinqə alınması, Listinqdə saxlanılması və Delistinqi qaydaları və "Bakı Fond Birjasında qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə ticarətin təşkili və keçirilməsi" Qaydaları əsasında tənzimlənir. İstiqrazların ticarətə qəbul edilməsi ilə bağlı müraciət Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən Emissiya prospekti təsdiq edilib, buraxılış dövlət qeydiyyatına alındıqdan sonra ediləcəkdir.
İstiqrazlar kütləvi təklif üsulu ilə birqiymətli hərrac vasitəsilə BFB-nin ticarət platformasında birja üzvü tərəfindən sifarişlərin birjanın sisteminə daxil edilməsi yolu ilə alqı-satqı əqdləri bağlanılmaqla ilkin yerləşdiriləcəkdir. İstiqrazların yerləşdirilməsinə onların fond birjasında ticarətə buraxılmasından sonra başlanılır. Hərrac günü anderrayter (bu Emissiya Prospekti üzrə qiymətli kağızların öhdəlik götürmədən yerləşdirilməsini təmin edən şəxs – "Unicapital İnvestisiya Şirkəti" ASC) və digər birja üzvləri sifarişlərin qəbul edilməsi üçün elan olunmuş müddət ərzində istiqrazların alınması üçün sifarişləri BFB-yə təqdim edir. İnvestorlar tərəfindən təqdim edilmiş sifarişlərin cəmi emissiyanın ümumi həcmindən çox olarsa, sifarişlər proporsional qaydada icra olunacaqdır. Hərrac günündən gec olmayaraq, istiqrazların alınması üçün pul vəsaitləri investorlar tərəfindən anderrayterin hesablaşma agenti kimi çıxış edən "Unibank KB" ASC-də açılmış emitentin müvəqqəti cari hesabına köçürülməlidir. Hərracın keçirilməsi tarixi Emitent tərəfindən müəyyən edilir və hərracın keçirilməsinə ən azı 2 (iki) iş günü qalmış BFB-nin internet saytında (www.bfb.az) və Emitentin internet saytında (www.unibank.az) açıqlanır. BFB-nin fəaliyyəti AR Mülki Məcəlləsi, Qiymətli Kağızlar Bazarı haqqında AR Qanunu, Azərbaycan Respublikasının digər hüquqi-normativ aktları və BFB-nin nizamnaməsi və daxili qaydaları ilə tənzimlənir.

Yerləşdiyi ünvan: City Point Biznes Mərkəzi, Cəlil Məmmədquluzadə küç, 102A, Bakı, Azərbaycan.
Elektron poçt ünvanı: info@bse.az
İnternet şəbəkəsində rəsmi səhifəsi: www.bfb.az
Tel: (+99412) 498 98 20.

## 4. Risk faktorları

### 4.1 Təklif olunan qiymətli kağızlarla əlaqəli bazar risklərini qiymətləndirmək üçün zəruri olan risk faktorları:

Təklif olunan istiqrazlara investisiya qoyulması investorlar üçün müəyyən bazar riskləri yarada bilər. Bu risklər istiqrazların bazar dəyərinə, likvidliyinə, habelə investorların gözlənilən gəlirliliyinə də müəyyən dərəcədə təsir edə bilər. Potensial investorlar investisiya qərarı qəbul edərkən aşağıda qeyd olunan risk amillərini də nəzərdən keçirməlidirlər.

**İkincil bazar likvidliyi riski**
Təklif olunan istiqrazların listinqə daxil edilməsinə baxmayaraq, onların təkrar bazarda aktiv şəkildə alınıb-satılacağına dair təminat verilmir. İkincil bazarda ticarət həcminin məhdud olması

vəziyyətində investorların istiqrazları istənilən vaxt bazar qiyməti ilə sata bilməməsinə və ya satışın yalnız nominal dəyərdən aşağı qiymətlə həyata keçirilməsinə səbəb ola bilər.

**Bazar faiz dərəcəsi riski**
Bazar faiz dərəcələrinin artması mövcud sabit faizli istiqrazların bazar dəyərinin azalmasına səbəb ola bilər. Bu halda investor istiqrazı ödəmə tarixindən əvvəl satmaq istədikdə nominal dəyərdən aşağı qiymətlə satış riski ilə üzləşə bilər. Əksinə, bazar faiz dərəcələrinin azalması istiqrazların bazar qiymətinin artmasına səbəb ola bilər.

**İnflyasiya riski**
İnflyasiya səviyyəsinin istiqrazın faiz dərəcəsini üstələməsi halında, istiqraz üzrə əldə edilən gəlirin real alıcılıq qabiliyyəti azala bilər. Bu, investorun real gəlirliliyinin gözləniləndən aşağı olmasına səbəb ola bilər.

**Emitentin kredit qabiliyyəti riski**
Emitentin maliyyə vəziyyətinin, gəlirliliyinin, aktiv keyfiyyətinin, likvidlik və kapital göstəricilərinin pisləşməsi istiqrazların bazar qiymətinin azalmasına və investorların emitentin öhdəliklərini yerinə yetirmə qabiliyyətinə dair gözləntilərinin zəifləməsinə səbəb ola bilər.

**Reytinq riski**
Emitentin və ya emissiyanın kredit reytinqinin aşağı salınması və ya reytinq üzrə mənfi proqnozun verilməsi istiqrazların bazar dəyərinin azalmasına və onların investorlar üçün cəlbediciliyinin zəifləməsinə səbəb ola bilər.

**Likvidlik mükafatı riski**
Maliyyə bazarlarında qeyri-müəyyənliyin artması nəticəsində investorların tələb etdiyi risk mükafatı yüksələ bilər. Bu halda, bazar iştirakçıları daha yüksək gəlirlilik tələb etdikləri üçün istiqrazların bazar qiyməti azala bilər.

**Tənzimləyici və vergi riski**
Qiymətli kağızlar bazarını, bank fəaliyyətini və ya vergi rejimini tənzimləyən normativ-hüquqi aktlarda baş verə biləcək dəyişikliklər istiqrazlardan əldə edilən gəlirin xalis məbləğinə və istiqrazların bazar dəyərinə təsir göstərə bilər.

**Valyuta riski**
İstiqrazların nominasiya olunduğu valyutadan fərqli valyutada gəlir və ya öhdəlikləri olan investorlar üçün məzənnə dəyişiklikləri nəticəsində əlavə gəlir və ya zərər yarana bilər.

**Erkən satış riski**
İnvestor istiqrazları son ödəmə tarixinədək saxlamadığı təqdirdə, bazar şəraitindən asılı olaraq istiqrazları nominal dəyərdən aşağı qiymətə satmaq məcburiyyətində qala bilər və bu da kapital itkisinə səbəb ola bilər.

**Sistem və bazar volatilliyi riski**
Yerli və beynəlxalq maliyyə bazarlarında volatilliyin artması, makroiqtisadi və geosiyasi qeyri-müəyyənliklər investor davranışına və istiqrazlara olan tələbə təsir göstərə bilər ki, bu da istiqrazların bazar dəyərinin dəyişkənliyini artıra bilər.

**4.2 İstiqraz emissiyası zamanı emitentin öhdəliklərini yerinə yetirmək qabiliyyətinə təsir edə bilən risk faktorları:**

**Emitentin istiqrazlar üzrə faiz və əsas borc ödənişlərini vaxtında və tam həcmdə yerinə yetirmək qabiliyyəti**
Bankın maliyyə vəziyyətindən, fəaliyyət nəticələrindən və bank sektoruna xas risklərin effektiv idarə olunmasından asılıdır. Aşağıda qeyd olunan risk amillərinin reallaşması Bankın gəlirliliyinə, likvidlik mövqeyinə, kapital adekvatlığına və nəticə etibarilə istiqraz sahibləri qarşısında öhdəliklərini yerinə yetirmək qabiliyyətinə mənfi təsir göstərə bilər.

**Aktivlərin keyfiyyəti ilə bağlı risklər**
Borcalanların maliyyə vəziyyətinin pisləşməsi, kredit portfelində problemli aktivlərin artması, təminatların bazar dəyərinin azalması və yaradılmış ehtiyatların kifayət etməməsi Bankın gəlirlərinin azalmasına və əlavə zərərlərin yaranmasına səbəb ola bilər.

**Likvidlik və maliyyələşmə riski**
Müştəri depozitlərinin vaxtından əvvəl geri çəkilməsi, maliyyə bazarlarında volatilliyin artması və ya yeni maliyyələşmə mənbələrinə çıxışın məhdudlaşması Bankın cari öhdəliklərini, o cümlədən istiqrazlar üzrə ödənişlərini yerinə yetirmək imkanlarını zəiflədə bilər.

**Faiz dərəcəsi və valyuta riski**
Bazar faiz dərəcələrinin artması Bankın cəlb edilmiş vəsaitlərinin dəyərini yüksəldə, aktiv və öhdəliklərin yenidən qiymətləndirilməsi arasındakı uyğunsuzluqlar isə xalis faiz gəlirinə mənfi təsir göstərə bilər. Valyuta məzənnələrinin dəyişməsi açıq valyuta mövqeləri üzrə zərərlərə səbəb ola bilər.

**Kapital adekvatlığı riski**
Gözlənilməz zərərlərin artması nəticəsində Bankın kapital göstəriciləri tənzimləyici tələblərə yaxınlaşa və ya bu tələblərdən aşağı düşə bilər ki, bu da Bankın fəaliyyət imkanlarını məhdudlaşdıra bilər.

**Əməliyyat və informasiya texnologiyaları riski**
İnformasiya sistemlərində nasazlıqlar, kibertəhlükələr, insan səhvləri, daxili nəzarət mexanizmlərində çatışmazlıqlar və ya üçüncü tərəf xidmət təminatçılarının fəaliyyətində yaranan problemlər Bankın normal fəaliyyətinə və maliyyə nəticələrinə mənfi təsir göstərə bilər.

**Tənzimləyici və hüquqi risklər**
Bank fəaliyyəti üzrə normativ-hüquqi aktlarda, prudensial tələblərdə, vergi və mühasibat qaydalarında baş verən dəyişikliklər Bankın fəaliyyət modelinə və maliyyə göstəricilərinə təsir göstərə bilər. Məhkəmə çəkişmələri və digər hüquqi mübahisələr əlavə maliyyə öhdəlikləri yarada bilər.

**Makroiqtisadi və geosiyasi risklər**
İqtisadi artımın zəifləməsi, inflyasiyanın yüksəlməsi, faiz dərəcələrinin artması, regional geosiyasi gərginliklər və digər xarici amillər Bankın müştərilərinin ödəmə qabiliyyətinə, aktivlərin keyfiyyətinə və likvidlik vəziyyətinə mənfi təsir göstərə bilər.

**Reputasiya riski**
Bankın nüfuzunun zəifləməsi müştəri etimadının azalmasına, depozit bazasının daralmasına və maliyyələşmə imkanlarının məhdudlaşmasına səbəb ola bilər.

**Fors-major hallar**
Təbii fəlakətlər, pandemiyalar, hərbi münaqişələr, enerji və rabitə sistemlərində fasilələr kimi Bankın nəzarətindən kənar hadisələr Bankın fəaliyyətinin fasiləsizliyinə və öhdəliklərini yerinə yetirmək qabiliyyətinə mənfi təsir göstərə bilər.

## 5. Təklif

### 5.1 Təklifin səbəbi mənfəətin əldə edilməsi və ya bəzi risklərin sığortalanmasından fərqli olduğu təqdirdə emissiyanın səbəbi:

Emissiyanın məqsədi Bankın II dərəcəli kapitalının artırılması, mütəşəkkil kapital bazarından sərbəst vəsaitlərin cəlb edilməsi ilə bankın aktivlərinin və pul vəsaitlərinin resurs bazasının diversifikasiyasının artırılması, eləcə də Azərbaycan Respublikasının qiymətli kağızlar bazarının inkişafına töhfə verilməsidir. Həmçinin bu yolla “Unibank KB” ASC uzunmüddətli və dayanıqlı maliyyə resurslarının cəlb edilməsi yolu ilə bankın aktiv əməliyyatları genişləndirir, kredit portfelinin diversifikasiyasını və maliyyə dayanıqlılığını gücləndirir.
Eyni zamanda, istiqraz buraxılışı bankın likvidlik mövqeyinin möhkəmləndirilməsinə, aktiv və passivlərin müddət uyğunluğunun yaxşılaşdırılmasına və faiz risklərinin daha effektiv idarə olunmasına xidmət edəcəkdir.
Emissiya nəticəsində cəlb edilən vəsaitlər bankın strateji inkişaf planına uyğun olaraq gəlir gətirən aktivlərə yönəldiləcək və bununla da bankın gəlirliliyinin və bazar payının artırılmasına şərait yaradacaqdır.

### 5.2 Təklifin şərtlərinin təsviri:
Emissiya ediləcək istiqrazlar qanunvericiliklə müəyyən edilmiş orqan (qurum) tərəfindən dövlət qeydiyyatına alındıqdan sonra yerləşdirmənin başlanmasına ən azı 2 iş günü qalmış hərracın baş tutacağı tarix “Bakı Fond Birjası” QSC-nin (www.bfb.az) və emitentin (www.unibank.az) saytında investorlara açıqlanacaqdır. İstiqrazlar kütləvi təklif üsulu ilə Bakı Fond Birjasında 6 (altı) il müddətli, təmin edilməmiş, sənədsiz, adlı, istiqrazların nominal dəyəri 100 (bir yüz) ABŞ dolları olmaqla, illik 8 (səkkiz) faiz və faiz ödənişinin bir ayda günlərin sayı 30 gün olaraq götürməklə hər 3 (üç) aydan bir ödəniş şərti ilə 5 (beş) milyon ABŞ dolları dəyərində yerləşdiriləcəkdir. Yerləşdirmə müddətində investorlardan almaq istədiyi istiqrazların dəyərini emitent tərəfindən investisiya şirkətinin hesablaşma agentində (“Unibank” KB” ASC-də) açılan müvəqqəti cari hesaba köçürmələri tələb olunur.

### 5.3 Emissiyada iştirak edən şəxslərin maraqları, o cümlədən maraqların toqquşması, barədə ətraflı məlumat:

**"Bakı Fond Birjası" QSC**

Emissiya prosesində iştirak edən Bakı Fond Birjası (BFB) yeni emissiya ediləcək istiqrazların ticarətə buraxılması üçün icazə verilməsi, hərrac vasitəsilə istiqrazların ilkin yerləşdirilməsi, listinqə daxil edilməsi, həmçinin təkrar bazarda alqı-satqısı üçün mütəşəkkil ticarəti təşkil edir.

İstiqrazların emissiyası prosesində "Bakı Fond Birjası" QSC-nin vəzifələri aşağıdakı kimidir:

- İstiqrazların ticarətə qəbuluna icazənin verilməsi;
- İstiqrazların hərrac vasitəsilə yerləşdirilməsi üçün müvafiq ticarət sisteminin təmin edilməsi;
- İstiqrazların listinqə daxil edilməsi;
- İstiqrazların təkrar bazar əməliyyatlarının aparılması üçün müvafiq ticarət sisteminin təmin edilməsi.

Bakı Fond Birjasının "Unibank" KB ASC-nin və digər emitentlərin emissiya etdiyi qiymətli kağızların onun ticarət platformasında ticarətə buraxılmasında marağı kommersiya xarakterlidir. BFB qiymətli kağızların yerləşdirilməsi və tədavülündən, habelə qiymətli kağızların listinqindən öz tarif cədvəlinə uyğun olaraq xidmət haqqı tutur.

Emissiya ediləcək istiqrazlar "Bakı Fond Birjası" (BFB) Qapalı Səhmdar Cəmiyyətində yerləşdiriləcəkdir. BFB 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 21 iyul 2000-ci il tarixli "fond birjası fəaliyyəti"-ni həyata keçirməyə icazə verən 5 saylı müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin peşəkar təşkilatçısı kimi fəaliyyət göstərir. BFB Qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarəti təşkil edir.

Yerləşdiyi ünvan: City Point Biznes Mərkəzi, Cəlil Məmmədquluzadə küç, 102A, Bakı, Azərbaycan
Elektron poçt ünvanı: info@bse.az
İnternet şəbəkəsində rəsmi səhifəsi: www.bfb.az
Tel: (+99412) 498 98 20

BFB-nin fəaliyyəti Azərbəycan Respublikasının Mülki Məcəlləsi, "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının digər hüquqi aktları və BFB-nin nizamnaməsi və daxili Qaydaları ilə tənzimlənir.

**Milli Depozit Mərkəzi**

Milli Depozit Mərkəzi (MDM) Azərbaycan Respublikasının mərkəzi depozitarı olaraq maliyyə bazarlarına nəzarət orqanı tərəfindən təsis edilmiş qeyri-kommersiya hüquqi şəxsdir. MDM-in əsas məqsədi Azərbaycan Respublikasının ərazisində qiymətli kağızların saxlanılmasını, onlar üzərində mülkiyyət və digər hüquqların uçotunu, habelə qiymətli kağızlarla bağlı əqdlərin qeydiyyatını aparan depozitar sisteminin işinin təşkili və əlaqələndirilməsidir.

İstiqrazların emissiyası prosesində MDM-in vəzifələri aşağıdakı kimidir:

- İstiqrazların saxlanması və uçotunun aparılması;
- İstiqraz mülkiyyətçilərinin reyestrinin aparılması;
- Emitentin ödəniş agenti qismində istiqraz üzrə istiqraz mülkiyyətçilərinə ödənişlərin (əsas borc və faiz) həyata keçirilməsi xidmətinin göstərilməsi.

Bu xidmətlərin göstərilməsinə görə MDM öz tarif cədvəlinə uyğun olaraq xidmət haqqı tutur.

Yerləşdiyi ünvan: Həsən bəy Zərdabi prospekti 2A, Bakı, AZ1141
Elektron poçt ünvanı: info@mdm.gov.az

Internet şəbəkəsində rəsmi səhifəsi: https://mdm.gov.az/
Tel: +994(12) 538 3190 / Qaynar xətt: 966-9

MDM öz fəaliyyətində Azərbaycan Respublikasının Prezidentinin 14 iyul 2015-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş "Qiymətli kağızlar bazarı haqqında Azərbaycan Respublikasının Qanunu"nu, Azərbaycan Respublikasının Mülki Məcəlləsini, Azərbaycan Respublikasının qüvvədə olan digər normativ hüquqi aktlarını və öz Nizamnaməsini rəhbər tutur. "Qiymətli kağızlar bazarı haqqında Azərbaycan Respublikasının Qanunu"na əsasən MDM mərkəzi depozitar olaraq müvafiq lisenziya almadan klirinq fəaliyyəti ilə məşğul ola bilər.

**Anderrayter**
"Unicapital İnvestisiya Şirkəti" ASC Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi (hazırkı İqtisadiyyat Nazirliyi) tərəfindən verilmiş İSN/L-30 /2016 nömrəli, 08 yanvar 2016-cı il tarixli müddətsiz lisenziya əsasında investisiya şirkəti fəaliyyətini həyata keçirir. Bu lisenziya əsasında "Unicapital İnvestisiya Şirkəti" ASC emitent və investorlara bir sıra əsas və yardımçı investisiya xidmətləri göstərir. "Unibank Kommersiya Bankı" ASC-nin yeni buraxılacaq istiqrazların anderraytinqi və yerləşdirilməsi "Unicapital İnvestisiya Şirkəti" ASC tərəfindən həyata keçiriləcəkdir və bu xidmətin göstərilməsinə görə "Unibank Kommersiya Bankı" ASC-dən xidmət haqqı tutacaqdır. "Unibank Kommersiya Bankı" ASC-nin istiqrazlarının anderraytinqi və yerləşdirilməsi prosesində "Unicapital İnvestisiya Şirkəti" ASC-nin marağı kommersiya xarakterlidir.

- İstiqrazların yerləşdirilməsi üzrə hərrac zamanı toplanılan alış sifarişlərinə qarşı Emitentin satış sifarişini daxil etmək;
- Yerləşdirilmənin öhdəlik götürmədən həyata keçirmək;
- Sifarişlərin uzlaşdırılması nəticəsində əmələ gələn alğı-satqı əqdləri barədə hesabat tərtib edərək emitentə təqdim etmək.
- Yerləşdirmə nəticəsində toplanmış pul vəsaitlərini emitentin bank hesabına köçürülməsini təmin etmək.

Yerləşdiyi ünvan: Caspian Plaza Biznes Mərkəzi
Elektron poçt ünvanı: info@unicapital.az
Internet şəbəkəsində rəsmi səhifəsi: www.unicapital.az/
Tel: (012) 541 33 33 / +994 50 527 11 17 / +994 50 573 01 17

Bu emissiyada iştirak edən MDM, BFB, emitentin İdarə Heyətinin sədri vəzifələrini müvəqqəti icra edən Heybət Qədirov, emitentin İdarə Heyətinin üzvü / Baş Maliyyə İnzibatçısı Faiq Zeynalov, kənar auditorların və anderrayterin maraqlarının toqquşması ilə bağlı hal mövcud deyildir.

### 5.4 İstiqraz alıcısının ödəməli olduğu vergi və xərclərin məbləği:

**Vergi:** İstiqrazlar üzrə faiz ödənişi zamanı qanunvericilikdə müəyyən edilmiş qaydada ödəmə mənbəyindən vergi tutulur. Hüquqi şəxs olan istiqraz mülkiyyətçilərinin istiqrazlar üzrə faiz gəlirindən Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 123-cü maddəsinə müvafiq olaraq ödəniş mənbəyindən 10 faiz dərəcəsi ilə vergi tutulur (Vergi Məcəlləsinin 123.1-ci maddəsində nəzərdə tutulan şəxslər istisna olmaqla).
Bununla yanaşı, Vergi Məcəlləsində edilmiş dəyişikliyə əsasən, 2023-cü il fevralın 1-dən etibarən 5 (beş) il müddətində yalnız kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə müvafiq olaraq ödənilən dividend, diskont və faiz gəlirləri

vergidən azad olunur, Yəni, istiqrazlar üzrə ödənilən faiz ödənişindən tutulan vergidən fiziki şəxslər 2028-ci ilin fevral ayının 1-dək azaddırlar. İstiqrazların dövriyyədə olduğu müddətdə vergi qanunvericiliyi dəyişərsə, tətbiq ediləcək vergilər barədə məlumat emitent və ya anderrayter tərəfindən kütləvi informasiya vasitələri ilə investorların diqqətinə çatdırılacaqdır.

**Xərclər:** İlkin bazarda istiqrazların alışı zamanı həyata keçən əqdlərdən aşağıdakı investor xərcləri yarana bilər:

Bakı Fond Birjası - əqdin həcmindən 0.02%;

Milli Depozit Mərkəzi - depo hesabının açılışı 5 (beş) AZN, investisiya şirkəti tərəfindən depo hesabı açılışı ilə bağlı əlavə rüsum tətbiq edilə bilər;

Bank köçürmə xərcləri – bankdan aslı olaraq dəyişir.

İnvestisiya şirkətləri – investisiya şirkəti ilə investor arasında bağlanmış müqavilə əsasında müəyyən olunur.

## İSTİQRAZLAR BARƏDƏ TƏLƏB OLUNAN MƏLUMAT

### 6. Əsas məlumat

#### 6.1 Emissiyada iştirak edən şəxslərin maraqları, o cümlədən maraqların toqquşması, barədə ətraflı məlumat:

**"Bakı Fond Birjası" QSC**

Emissiya prosesində iştirak edən Bakı Fond Birjası (BFB) yeni emissiya ediləcək istiqrazların ticarətə buraxılması üçün icazə verilməsi, hərrac vasitəsilə istiqrazların ilkin yerləşdirilməsi, listinqə daxil edilməsi, həmçinin təkrar bazarda alqı-satqısı üçün mütəşəkkil ticarəti təşkil edir.
İstiqrazların emissiyası prosesində "Bakı Fond Birjası" QSC-nin vəzifələri aşağıdakı kimidir:

- İstiqrazların ticarətə qəbuluna icazənin verilməsi;
- İstiqrazların hərrac vasitəsilə yerləşdirilməsi üçün müvafiq ticarət sisteminin təmin edilməsi;
- İstiqrazların listinqə daxil edilməsi;
- İstiqrazların təkrar bazar əməliyyatlarının aparılması üçün müvafiq ticarət sisteminin təmin edilməsi

Bakı Fond Birjasının "Unibank" KB ASC-nin və digər emitentlərin emissiya etdiyi qiymətli kağızların onun ticarət platformasında ticarətə buraxılmasında marağı kommersiya xarakterlidir. BFB qiymətli kağızların yerləşdirilməsi və tədavülündən, habelə qiymətli kağızların listinqindən öz tarif cədvəlinə uyğun olaraq xidmət haqqı tutur.

Emissiya ediləcək istiqrazlar "Bakı Fond Birjası" (BFB) Qapalı Səhmdar Cəmiyyətində yerləşdiriləcəkdir. BFB 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 21 iyul 2000-ci il tarixli "fond birjası fəaliyyəti"-ni həyata keçirməyə icazə verən 5 saylı müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin peşəkar təşkilatçısı kimi fəaliyyət göstərir. BFB Qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarəti təşkil edir.

Yerləşdiyi ünvan: City Point Biznes Mərkəzi, Cəlil Məmmədquluzadə küç, 102A, Bakı, Azərbaycan
Elektron poçt ünvanı: info@bse.az
Internet şəbəkəsində rəsmi səhifəsi: www.bfb.az
Tel: (+99412) 498 98 20

BFB-nin fəaliyyəti Azərbəycan Respublikasının Mülki Məcəlləsi, "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının digər hüquqi aktları və BFB-nin nizamnaməsi və daxili Qaydaları ilə tənzimlənir.

**Milli Depozit Mərkəzi**

Milli Depozit Mərkəzi (MDM) Azərbaycan Respublikasının mərkəzi depozitarı olaraq maliyyə bazarlarına nəzarət orqanı tərəfindən təsis edilmiş qeyri-kommersiya hüquqi şəxsdir. MDM-in əsas məqsədi Azərbaycan Respublikasının ərazisində qiymətli kağızların saxlanılmasını, onlar üzərində mülkiyyət və digər hüquqların uçotunu, habelə qiymətli kağızlarla bağlı əqdlərin qeydiyyatını aparan depozitar sisteminin işinin təşkili və əlaqələndirilməsidir.

İstiqrazların emissiyası prosesində MDM-in vəzifələri aşağıdakı kimidir:

- İstiqrazların saxlanması və uçotunun aparılması;
- İstiqraz mülkiyyətçilərinin reyestrinin aparılması;
- Emitentin ödəniş agenti qismində istiqraz üzrə istiqraz mülkiyyətçilərinə ödənişlərin (əsas borc və faiz) həyata keçirilməsi xidmətinin göstərilməsi.

Bu xidmətlərin göstərilməsinə görə MDM öz tarif cədvəlinə uyğun olaraq xidmət haqqı tutur.

Yerləşdiyi ünvan: Həsən bəy Zərdabi prospekti 2A, Bakı, AZ1141
Elektron poçt ünvanı: info@mdm.gov.az
Internet şəbəkəsində rəsmi səhifəsi: https://mdm.gov.az/
Tel: +994(12) 538 3190 / Qaynar xətt: 966-9

MDM öz fəaliyyətində Azərbaycan Respublikasının Prezidentinin 14 iyul 2015-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş "Qiymətli kağızlar bazarı haqqında Azərbaycan Respublikasının Qanunu"nu, Azərbaycan Respublikasının Mülki Məcəlləsini, Azərbaycan Respublikasının qüvvədə olan digər normativ hüquqi aktlarını və öz Nizamnaməsini rəhbər tutur. "Qiymətli kağızlar bazarı haqqında Azərbaycan Respublikasının Qanunu"na əsasən MDM mərkəzi depozitar olaraq müvafiq lisenziya almadan klirinq fəaliyyəti ilə məşğul ola bilər.

**Anderrayter**. "Unicapital İnvestisiya Şirkəti" ASC Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi (hazırkı İqtisadiyyat Nazirliyi) tərəfindən verilmiş İSN/L-30 /2016 nömrəli, 08 yanvar 2016-cı il tarixli müddətsiz lisenziya əsasında investisiya şirkəti fəaliyyətini həyata keçirir. Bu lisenziya əsasında "Unicapital İnvestisiya Şirkəti" ASC emitent və investorlara bir sıra əsas və yardımçı investisiya xidmətləri göstərir. "Unibank Kommersiya Bankı" ASC-nin yeni buraxılacaq istiqrazların anderraytinqi və yerləşdirilməsi "Unicapital İnvestisiya Şirkəti" ASC tərəfindən həyata keçiriləcəkdir və bu xidmətin göstərilməsinə görə "Unibank Kommersiya Bankı" ASC-dən xidmət haqqı tutacaqdır. "Unibank Kommersiya Bankı" ASC-nin istiqrazlarının anderraytinqi və yerləşdirilməsi prosesində "Unicapital İnvestisiya Şirkəti" ASC-nin marağı kommersiya xarakterlidir.

- İstiqrazların yerləşdirilməsi üzrə hərrac zamanı toplanılan alış sifarişlərinə qarşı Emitentin satış sifarişini daxil etmək;
- Yerləşdirilmənin öhdəlik götürmədən həyata keçirmək;
- Sifarişlərin uzlaşdırılması nəticəsində əmələ gələn alğı-satqı əqdləri barədə hesabat tərtib edərək emitentə təqdim etmək.
- Yerləşdirmə nəticəsində toplanmış pul vəsaitlərini emitentin bank hesabına köçürülməsini təmin etmək.

Yerləşdiyi ünvan: Caspian Plaza Biznes Mərkəzi
Elektron poçt ünvanı: info@unicapital.az
Internet şəbəkəsində rəsmi səhifəsi: www.unicapital.az/
Tel: (012) 541 33 33 / +994 50 527 11 17 / +994 50 573 01 17

Bu emissiyada iştirak edən MDM, BFB, emitentin İdarə Heyətinin sədri v.m.i.e Heybət Qədirov, emitentin İdarə Heyətinin üzvü / Baş Maliyyə İnzibatçısı Faiq Zeynalov, kənar auditorların və anderrayterin maraqlarının toqquşması ilə bağlı hal mövcud deyildir.

**6.2 İstiqraz təklifinin səbəbləri və istiqrazların yerləşdirilməsindən əldə edilən vəsaitlərin istifadə edilməsi barədə ətraflı məlumat:**

Bu istiqrazların buraxılışı mütəşəkkil kapital bazarından sərbəst vəsaitlərin cəlb edilməsi ilə bankın aktivlərinin və pul vəsaitlərinin resurs bazasının diversifikasiyasının artırılması, eləcə də Azərbaycan Respublikasının qiymətli kağızlar bazarının inkişafına töhfə vermək məqsədi ilə həyata keçiriləcəkdir. Emissiyadan əldə olunan vəsait bankın strateji hədəflərinin reallaşdırılması, bazar nüfuzunun və bazar payının artırılması, eləcə də xarici mühitdə yaranacaq hər cür dəyişikliyə cəld və effektiv uyğunlaşmanın təmini üçün lazımi resursların və mexanizimlərin təkmilləşdirilməsinə investisiya olacaq. Əlavə olaraq, ölkə daxilində sərfəli və keyfiyyətli bankçılıq xidmətləri təklif etməklə regionlarda real iqtisadiyyatın maliyyələşdirilməsi, bölgələrdə iqtisadi rifahın və məşğulluğun artırılmasına müsbət təsir göstərəcəkdir. Emitentin fəaliyyəti nəticəsində əldə edilmiş gəlirlər Emitentin kapitallaşdırılmasına yönəldiləcək və pul vəsaitlərinin resurs bazasının fərqləndirilməsinə imkan yaradacaqdır.

**6.3 Əldə olunan vəsaitlərin nəzərdə tutulan layihələrinin maliyyələşdirmək üçün kifayət etmədiyi təqdirdə tələb olunan əlavə pul vəsaitlərinin məbləği və mənbələri:**

Bu emissiyadan əldə edilən vəsait Bankın II dərəcəli kapitalının artırılması üçün nəzərdə tutulduğundan və cəlb olunan vəsait kifayət edəcəyindən, əlavə pul vəsaitinin cəlb olunması nəzərdə tutulmamışdır.

**6.4 Əldə olunan vəsaitlərin digər müəssisələrinin alışını maliyyələşdirmək, borcları qaytarmaq və ya restrukturizasiya etmək və ya emitentin əsas fəaliyyətinə aidiyyatı olmayan aktivləri əldə etmək üçün istifadə olunması nəzərdə tutulduqda bu barədə ətraflı məlumat:**

Əldə olunacaq vəsait bu bənddə göstərilən istiqamətlər üzrə istifadə olunmayacaqdır.

## 7. İstiqrazlar barədə məlumat

**7.1 Qiymətli kağızların emissiyasını tənzimləyən qanunvericilik:**

- Azərbaycan Respublikasının Mülki Məcəlləsi;
- Qiymətli kağızlar bazarı haqqında Azərbaycan Respublikasının Qanunu;
- İnvestisiya qiymətli kağızlarına abunə yazılışı və yerləşdirilməsi haqqında Qaydalar;
- Emissiya prospektinə və informasiya memorandumuna dair tələblər haqqında Qaydalar.

**7.2 İstiqrazların növü:** Faizli, təmin edilməmiş, adlı, sənədsiz istiqrazlar

**7.3 Təklif edilən qiymətli kağızların sayı və nominal dəyəri (yeni buraxılan və mövcud olan istiqrazlar barədə məlumat ayrı ayrılıqda göstərilməklə):**

Tədavüldə olan istiqrazlar:

| İSİN | Say | Nominal | Həcm | Valyuta |
|---|---|---|---|---|
| AZ2012002021 | 15,000 | 1000.00 | 15,000,000.00 | ABŞ dolları |
| AZ2014002029 | 12,000 | 1000.00 | 12,000,000.00 | ABŞ dolları |
| AZ2017002026 | 11,000 | 1000.00 | 11,000,000.00 | ABŞ dolları |
| AZ2018002025 | 4,000 | 1000.00 | 4,000,000.00 | ABŞ dolları |
| AZ2016002027 | 200,000 | 100.00 | 20,000,000.00 | AZN |

Yeni buraxılacaq istiqraz:

| Say | Nominal | Həcm | Valyuta |
|---|---|---|---|
| 50,000 | 100.00 | 5,000,000.00 | ABŞ dolları |

**7.4 İstiqrazların valyutası:** ABŞ Dolları

**7.5 İstiqrazların saxlanması və onlara hüquqların uçotunu aparan Mərkəzi Depozitarın olduğu yer:** Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi (MDM) Qiymətli Kağızlar Bazarı haqqında Qanunun 16.1-ci maddəsinə əsasən təsis olunan qeyri-kommersiya hüquqi şəxs olub, Azərbaycan Respublikasının ərazisində depozitar sisteminin işini təşkil edən və əlaqələndirən Mərkəzi Depozitardır.

**Hüquqi ünvanı:** AZ1000, Bakı şəh., Bül-Bül pr., 27;
**Faktiki ünvanı:** Bakı ş., Yasamal r-nu, Həsən bəy Zərdabi küçəsi 2A (Şokolad Tower)

**7.6 Təklif olunan istiqrazların reytinqi (olduqda) və bu reytinqə təsir edən amillər barədə məlumat:**
Təklif edilən istiqrazların reytinqi mövcud deyil.

**7.7 İstiqrazlarla təsbit olunmuş hüquqlar aşağıdakı kimi müəyyən edilsin:**

- Emitentin ləğvi, yaxud yenidən təşkili barədə qərar qəbul edildikdə, habelə Emitent müflis elan olunduqda, əmanətçilərin və bankın digər kreditorlarının tələbləri tam ödənildikdən sonra istiqrazların nominal dəyərinin və həmin nominal dəyərə hesablanmış, lakin ödənilməmiş faizləri tələb etmək;
- Özünə məxsus istiqrazların vəziyyəti barədə məlumat almaq üçün birbaşa Milli Depozit Mərkəzinə (bundan sonra "Mərkəzi Depozitar") müraciət etmək;
- İstiqrazların ödənilməsi zamanı istiqrazların nominal dəyərini Emitentdən almaq;
- İstiqrazların tədavül müddəti ərzində istiqrazların nominal dəyərindən illik 8 (səkkiz) faiz həcmində faiz almaq;
- Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş subordinasiya borc öhdəliklərinin mahiyyətinə zidd olmayan digər hüquqlar.

**7.8 İstiqrazlar üzrə gəlirliyin faiz dərəcəsi:** İstiqrazlar üzrə faiz gəlirliyi illik 8 (səkkiz) faiz təşkil edir.

**7.9 İstiqrazların və faizlərin ödənilməsi tarixi və müddəti:**
İstiqrazlar üzrə illik faiz dərəcəsi 8 (səkkiz) faiz təşkil edir. İstiqrazlar üzrə ödənilməli olan faizlər istiqrazların tədavül müddətində istiqrazların yerləşdirildiyi tarixdən etibarən 6 (altı) il müddətində hər 3 (üç) aydan bir (bir ayda günlərin sayı 30 gün olaraq götürməklə) ödəniləcəkdir. Ödəniş tarixi qeyri-iş gününə təsadüf etdikdə, faiz ödənişi növbəti iş günü ödənilir. Ödənişlər bank hesabları vasitəsilə nağdsız qaydada həyata keçirilir. İstiqrazların nominal dəyəri sonuncu ödəniş ilə birlikdə ödəniləcəkdir.

**7.10 Faiz və əsas borcun ödənilməsi ilə bağlı iddia müddəti:** Əsas borc və faizin ödənilməsi ilə bağlı iddia müddəti Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 372-384-cü maddələri ilə tənzimlənir.

**7.11 . Faiz dərəcəsi müəyyən olunmadığı halda istiqrazın faiz dərəcəsinin hesablanması üsulu:** Faiz dərəcəsi müəyyən olunmuşdur.

**7.12 Bazarda baş verən hadisələrin istiqrazların baza aktivinə (olduqda) və istiqrazlar üzrə hesablaşmalara mənfi təsiri barədə məlumat. Belə halların tənzimlənməsi qaydaları və ya prosedurları:**

İstiqrazlar üzrə baza aktivi mövcud deyil. Bazarda baş verən hadisələr istiqrazlar üzrə hesablaşmalara mənfi təsir göstərməyəcəkdir.

**7.13 Ödənişlər üzrə hesablaşma agentinin adı:**

İstiqrazlar üzrə faiz ödənişləri və nominal dəyər üzrə əsas ödəniş Azərbaycan Respublikası Milli Depozit Mərkəzi vasitəsilə həyata keçiriləcəkdir.

**7.14 Təmin edilmiş istiqrazlar təklif olunduqda təminatın dəyərinin istiqrazların və onlar üzrə faizlərin ödənişinə təsiri barədə aydın və ətraflı məlumat:** İstiqrazlar təmin edilməmiş formada buraxılacaqdır.

**7.15 İstiqrazların geri satın alınması şərtləri:** Emitentin istiqrazları geri satınalınma öhdəliyi yoxdur. Lakin Bankın təklifi və müraciəti ilə istiqrazlar geri satınalına bilər.

**7.16 Gəlirlik dərəcəsi və onun hesablaşma qaydası:**
İstiqrazların nominal dəyəri üzrə faiz gəlirliyi 8 (səkkiz) faiz təşkil edir. İstiqrazlar üzrə toplanmış faizlərin hesablanması aşağıdakı düstura uyğun olaraq aparılır:

$$TF = \frac{\left(\frac{N * D * G}{360}\right)}{100}$$

Burada:
$TF$ – Bir istiqraz üzrə toplanmış faizlər;
$N$ – Bir istiqrazın nominal dəyəri – 100 (bir yüz) ABŞ dolları
$D$ – İstiqrazların illik faiz dərəcəsi – 8 (səkkiz);
$G$ – İstiqrazların ödəniş dövrünün müddəti - 90 (doxsan) gün , (hər 3 aydan bir, bir ayda 30 gün olduğunu qəbul etmək şərti ilə).
Beləliklə, hər bir istiqraz üzrə bir faiz dövrü üçün ödəniləcək faizlərin məbləği 2,00 (iki) ABŞ dolları təşkil edir.

**7.17 İnvestorları təmsil edən təşkilat barədə (olduqda) məlumat:** Mövcüd deyil.

**7.18 İstiqrazların emissiyası haqqında qərarın qəbul edilməsi tarixi nömrəsi və qərarın qəbul etmiş emitentin idarəetmə orqanının adı:**

İstiqrazların emissiyası haqqında qərar "Unibank" KB ASC-nin Müşahidə Şurası tərəfindən 16 mart 2026-cı il tarixində baş tutmuş iclasda qəbul edilmişdir.

**7.19 İstiqrazların əldə edilməsi üçün məhdudiyyətlər (olduqda) :** Mövcüd deyil.

**7.20 İstiqraz üzrə gəlirdən mənbədə verginin tutulması barədə məlumat. İstiqraz üzrə gəlirlərdən mənbədən verginin tutulması barədə emitentin öhdəliyi:** Azərbaycan Respublikasının Vergi Məcəlləsinin (bundan sonra – AR Vergi Məcəlləsi) 123.1-ci maddəsinə əsasən rezident fiziki şəxsə, qeyri-rezident fiziki şəxsin Azərbaycan

Respublikasındakı daimi nümayəndəliyinə (maliyyə lizinqini həyata keçirən fiziki şəxslər istisna olmaqla) və Azərbaycan Respublikasında daimi nümayəndəliyi olmayan qeyri-rezidentə rezident tərəfindən və ya qeyri-rezidentin daimi nümayəndəliyi tərəfindən, yaxud bu cür nümayəndəliyin adından ödənilən faizlərdən, o cümlədən maliyyə lizinqi əməliyyatları üzrə ödənilən ssuda faizlərindən, gəlir AR Vergi Məcəlləsinin 13.2.16-cı maddəsinə uyğun olaraq Azərbaycan mənbəyindən əldə edilmişdirsə, AR Vergi Məcəlləsinin 102.1.22-2-ci maddəsində nəzərdə tutulmuş güzəşt nəzərə alınmaqla ödəniş mənbəyində 10 faiz dərəcə ilə vergi tutulur.

AR Vergi Məcəlləsinin 102.1.22-2-ci maddəsinə əsasən fiziki şəxslərin 2023-cü il fevralın 1-dən etibarən 5 (beş) il müddətində Azərbaycan Respublikasının ərazisində, habelə ölkə hüdudlarından kənarda rezident hüquqi şəxslər tərəfindən kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz gəlirləri gəlir vergisindən azad olunmuşdur.

İstiqraz üzrə gəlirlərdən mənbədə digər vergilərin tutulması AR Vergi Məcəlləsinə uyğun tənzimlənir. İstiqrazların dövriyyədə olduğu müddətdə vergi qanunvericiliyi aidiyyəti vergilərlə bağlı dəyişiklər olarsa, ona uyğun vergilər tətbiq ediləcək.

## 8. Təklifin şərtləri

### 8.1 Təklifin və yerləşdirmənin başlanma və başa çatma tarixləri:

İstiqraz buraxılışı üzrə yerləşdirmənin başlanma və başa çatma tarixləri istiqrazlar dövlət qeydiyyatına alındıqdan sonra yerləşdirmənin başlanmasına ən azı 2 (iki) iş günü qalmış "Bakı Fond Birjası" QSC-nin (www.bfb.az) və anderrayterin saytında investorlara açıqlanacaqdır. Yerləşdirmə qanunvericiliyə uyğun olaraq hərrac günü başa çatacaqdır.

### 8.2 Təklifin qüvvədə olduğu müddət ərzində emissiya prospektinə düzəlişlərin edilə biləcəyi müddət və düzəlişlərin edilməsi qaydası:

Emissiya Prospektində dəyişikliklərin dövlət qeydiyyatına alınması üçün ərizə müvafiq qərarın qəbul edildiyi gündən 5 (beş) iş günü ərzində qanunvericilikdə müəyyən edilmiş orqana (quruma) təqdim edilir. Emissiya Prospektində dəyişikliklər müvafiq ərizənin daxil olduğu gündən 10 (on) iş günü ərzində dövlət qeydiyyatına alınır. Qeyd olunan dəyişikliklər dövlət qeydiyyatına alındığı tarixdən 5 (beş) iş günü ərzində vahid məlumat resursunda ("Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş məlumatların dərc edildiyi, ictimaiyyət üçün açıq olan və bu qanunla müəyyən edilmiş orqan (qurum) tərəfindən yaradılan avtomatlaşdırılmış sistem), fond birjasının və Emitentin internet səhifəsində açıqlanır və açıqlandığı tarixdən 15 (on beş) iş günü bitdikdən sonra qüvvəyə minir.

### 8.3 Təklifin dayandırılması və ya təxirə salınması hallarının izahı:

"Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununun 9-cu maddəsində nəzərdə tutulmuş hallarda təklif dayandırıla bilər. Bu barədə məlumat Emitent tərəfindən vahid məlumat resursunda ("Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının qanununda nəzərdə tutulmuş məlumatların dərc edildiyi ictimaiyyət üçün açıq olan və bu qanunla müəyyən edilmiş orqan (qurum) tərəfindən yaradılan avtomatlaşdırılmış sistem) fond birjasının və Emitentin internet səhifəsində açıqlanacaqdır.

**8.4 İstiqrazlara abunə yazılışı:** İstiqrazların yerləşdirilməsi abunə yazılışı aparılmadan, Bakı Fond Birjası QSC-nin ticarət platformasında bir qiymətli hərrac yolu ilə həyata keçiriləcəkdir.

**8.5 İstiqrazlar hərrac vasitəsilə yerləşdirildikdə hərracın keçirilməsi qaydası:**

İstiqrazların bir qiymətli hərrac üsulu ilə yerləşdirilməsi aşağıdakı qaydada həyata keçiriləcəkdir:

- Bir qiymətli hərrac üsullu ticarət zamanı əqdlər hərracın sonunda, toplanmış alış və ya satış sifarişlərinə qarşı qiymətli kağızları hərraca çıxaran ticarət iştirakçısı tərəfindən öncədən elan edilmiş bir qiymətlə əks sifarişin daxil edilməsi yolu ilə bağlanır.
- Bir qiymətli hərrac iki mərhələdə təşkil olunur: sifarişlərin qəbul edilməsi və əqdlərin bağlanması.
- Sifarişlərin qəbul edilməsi mərhələsində ticarət iştirakçıları rəqabətli sifarişlər təqdim edirlər. Bu mərhələdə ticarət iştirakçıları hərraca çıxarılmış qiymətli kağızlar üzrə təqdim etdikləri sifarişlərin şərtlərini dəyişdirə və ya bu sifarişləri ləğv edə bilərlər. Sifarişlərin təqdim edilmə müddəti bitdikdən sonra sifarişlərin təqdim edilməsinə, dəyişdirilməsinə və ləğv edilməsinə yol verilmir.
- Əqdlərin bağlanması mərhələsində qiymətli kağızları hərraca çıxaran ticarət iştirakçısı öncədən elan edilmiş qiymət və həcmdə toplanmış sifarişlər üzrə əks sifarişi daxil edir və nəticədə əqdlər bağlanır.
- Sifarişlərin qəbulu mərhələsində təqdim edilmiş sifarişlər (sifarişlər kitabı) yalnız qiymətli kağızları hərraca çıxaran ticarət iştirakçısına açıqlanır. Digər hərrac iştirakçıları yalnız özlərinin təqdim etdikləri sifarişləri görə bilir.

**8.6 İstiqrazların dəyərinin ödənilməsi və investorların istiqrazlarla təchizatı şərtləri və qaydası:**
İstiqrazların dəyərinin ödənilməsi qaydası “Qiymətli kağızlar bazarı haqqında Azərbaycan Respublikasının Qanunu” və “İnvestisiya qiymətli kağızlarına abunə yazılışı və yerləşdirilməsi haqqında Qaydalar” ilə tənzimlənir. Yerləşdirmə müddəti ərzində investorlar qiymətli kağızların dəyərini anderrayterin hesablaşma agenti olan “Unibank” KB ASC-də Emitentin adına açılmış müvəqqəti cari hesaba köçürməlidirlər. İnvestorlar tərəfindən ödənilmiş pul vəsaitləri qeyd edilən müvəqqəti cari hesabda saxlanılır və kütləvi yerləşdirilən istiqrazlar üzrə həmin vəsaitlərin istifadəsinə "Qiymətli kağızlar bazarı haqqında" Qanunun 8.1-ci maddəsinə uyğun olaraq yerləşdirmə başa çatdıqdan dərhal sonra yol verilir. Mərkəzi depozitar investisiya qiymətli kağızlarının dəyərinin investorlar tərəfindən ödənilməsi haqqında məlumatları aldıqdan sonra qiymətli kağızların investorların depo hesablarına köçürülməsi əməliyyatını həyata keçirir.

**8.7 Potensial investorların müxtəlif kateqoriyaları barədə məlumat:** Emissiya ediləcək istiqrazlar həm fiziki, həm də hüquqi şəxslər tərəfindən əldə edilə bilər.

**8.8 İstiqrazların satışının başlanması barədə investorlara bildirişlərin göndərilməsi qaydası və satışın xəbərdarlıq edilməzdən öncə başlaya bilib-bilməməsi barədə məlumat:**

Hərracın keçirildiyi gün investorlara hərracın başlanması saatı elektron poçt vasitəsi ilə bildiriləcəkdir. İstiqrazların satışı xəbərdarlıq edilmədən başlanıla bilməz.

**8.9 İstiqrazların təklif qiyməti. Qiymətin məlum olmadığı təqdirdə istiqrazların qiymətinin müəyyənləşdirmə metodunu göstərməklə bu prosesdə iştirak edən və məsuliyyət daşıyan şəxslər barədə məlumat:** Bir istiqrazın təklif qiyməti 100 (bir yüz) ABŞ dolları təşkil edir.

**8.10 İstiqraz alıcısının ödəməli olduğu vergi və xərclərin məbləği:**

**Vergi:** Azərbaycan Respublikasının Vergi Məcəlləsinin (bundan sonra – AR Vergi Məcəlləsi) 123.1-ci maddəsinə əsasən rezident fiziki şəxsə, qeyri-rezident fiziki şəxsin Azərbaycan Respublikasındakı daimi nümayəndəliyinə (maliyyə lizinqini həyata keçirən fiziki şəxslər istisna olmaqla) və Azərbaycan Respublikasında daimi nümayəndəliyi olmayan qeyri-rezidentə rezident tərəfindən və ya qeyri-rezidentin daimi nümayəndəliyi tərəfindən, yaxud bu cür nümayəndəliyin adından ödənilən faizlərdən, o cümlədən maliyyə lizinqi əməliyyatları üzrə ödənilən ssuda faizlərindən, gəlir AR Vergi Məcəlləsinin 13.2.16-cı maddəsinə uyğun olaraq Azərbaycan mənbəyindən əldə edilmişdirsə, AR Vergi Məcəlləsinin 102.1.22-2-ci maddəsində nəzərdə tutulmuş güzəşt nəzərə alınmaqla ödəniş mənbəyində 10 faiz dərəcə ilə vergi tutulur.
AR Vergi Məcəlləsinin 102.1.22-2-ci maddəsinə əsasən fiziki şəxslərin 2023-cü il fevralın 1-dən etibarən 5 (beş) il müddətində Azərbaycan Respublikasının ərazisində, habelə ölkə hüdudlarından kənarda rezident hüquqi şəxslər tərəfindən kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz gəlirləri gəlir vergisindən azad olunmuşdur.
İstiqraz üzrə gəlirlərdən mənbədə digər vergilərin tutulması AR Vergi Məcəlləsinə uyğun tənzimlənir. İstiqrazların dövriyyədə olduğu müddətdə vergi qanunvericiliyi aidiyyəti vergilərlə bağlı dəyişiklər olarsa, ona uyğun vergilər tətbiq ediləcək.

**Xərclər:** İlkin bazarda istiqrazların alışı zamanı həyata keçən əqdlərdən aşağıdakı investor xərcləri yarana bilər:
Bakı Fond Birjası - əqdin həcmindən 0.02%
Milli Depozit Mərkəzi – depo hesabının açılışı 5 (beş) AZN, investisiya şirkəti tərəfindən depo hesabı açılışı ilə bağlı əlavə rüsum tətbiq edilə bilər;
İnvestisiya şirkətləri – investisiya şirkəti ilə investor arasında bağlanmış müqavilə əsasında müəyyən olunur;
Bank köçürmə xərcləri – bankdan asılı olaraq dəyişir.

**8.11 İstiqrazları öhdəlik götürmədən yerləşdirən anderrayter barədə məlumat (adı, lisenziyası və ünvanı). Xidmət haqqı:**

**Anderrayter:** "Unicapital İnvestisiya Şirkəti" ASC
**Lisenziyası:** Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən 08.01.2016-ci il tarixində Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi (hazırkı İqtisadiyyat Nazirliyi) tərəfindən verilmiş İSN/L-30 /2016müddətsiz lisenziya
**Hüquqi ünvanı:** Azərbaycan Respublikası, Bakı şəhəri, AZ1022, R.Behbudov küç., 55, məhəllə 384,
**Faktiki ünvanı:** Bakı şəhəri, Cəfər Cabbarlı küçəsi 44 (Caspian Plaza 10-cu mərtəbə), Azərbaycan
**Xidmət haqqı:** "Unibank" KB ASC və "Unicapital İnvestisiya Şirkəti" ASC arasında bağlanacaq anderrayter müqaviləsində əksini tapacaq.

**8.12 Anderraytinq müqaviləsinin bağlandığı və ya bağlanacağı vaxt:** "Unibank KB ASC" və "Unicapital İnvestisiya Şirkəti" ASC" arasında anderrayter müqaviləsi qiymətli kağızlar buraxılışı dövlət qeydiyyatına alındıqdan sonra bağlanacaqdır.

## 9. Ticarətə buraxılma və onun tənzimlənməsi

**9.1 İstiqrazların tənzimlənən bazarda ticarətə buraxılması barədə emitent tərəfindən müraciətin edilməsinin nəzərdə tutulub tutulmaması barədə məlumat. Belə bir müraciətin edilməsi nəzərdə tutulduğu halda istiqrazların ticarətə buraxılacağı tənzimlənən bazar barədə məlumat və ticarətə buraxılmanın şərtləri:**

İstiqrazların ilkin yerləşdirilməsi kütləvi təklif üsulu ilə "Bakı Fond Birjası" QSC-nin ticarət platformasında həyata keçiriləcək. İstiqrazların ticarətə buraxılması üçün icazə ilə bağlı müraciət Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən buraxılış dövlət qeydiyyatına alındıqdan sonra ediləcəkdir.
BFB 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 21 iyul 2000-ci il tarixli "fond birjası fəaliyyəti"ni həyata keçirməyə icazə verən 5 saylı müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin peşəkar təşkilatçısı kimi fəaliyyət göstərir. BFB aşağıdakı bazarların ticarətini təşkil edir:

- dövlət qiymətli kağızları bazarı
- korporativ qiymətli kağızlar bazarı
- törəmə maliyyə alətləri bazarı

**Ticarətə buraxılmanın şərtləri:**

"Bakı Fond Birjası" QSC-də Qiymətli Kağızların Ticarətə Qəbulu, Listinqə alınması, Listinqdə saxlanılması və Delistinqi qaydaları və "Bakı Fond Birjasında qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə ticarətin təşkili və keçirilməsi" Qaydaları əsasında tənzimlənir. İstiqrazların ticarətə qəbul edilməsi ilə bağlı müraciət Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən Emissiya prospekti təsdiq edilib, buraxılış dövlət qeydiyyatına alındıqdan sonra ediləcəkdir.
İstiqrazlar kütləvi təklif üsulu ilə birqiymətli hərrac vasitəsilə BFB-nin ticarət platformasında birja üzvü tərəfindən sifarişlərin birjanın sisteminə daxil edilməsi yolu ilə alqı-satqı əqdləri bağlanılmaqla ilkin yerləşdiriləcəkdir. İstiqrazların yerləşdirilməsinə onların fond birjasında ticarətə buraxılmasından sonra başlanılır. Hərrac günü anderrayter (bu Emissiya Prospekti üzrə qiymətli kağızların 5,000,000.00 (beş milyon) ABŞ dolları həcmində hissəsini öhdəlik götürmədən yerləşdirilməsini təmin edən şəxs – "Unicapital İnvestisiya Şirkəti" ASC) və digər birja üzvləri sifarişlərin qəbul edilməsi üçün elan olunmuş müddət ərzində istiqrazların alınması üçün sifarişləri BFB-yə təqdim edir. İnvestorlar tərəfindən təqdim edilmiş sifarişlərin cəmi emissiyanın ümumi həcmindən çox olarsa, sifarişlər proporsional qaydada icra olunacaqdır. Hərrac günündən gec olmayaraq, istiqrazların alınması üçün pul vəsaitləri investorlar tərəfindən anderrayterin hesablaşma agenti kimi çıxış edən "Unibank KB" ASC-də açılmış emitentin müvəqqəti cari hesabına köçürülməlidir. Hərracın keçirilməsi tarixi Emitent tərəfindən müəyyən edilir və hərracın keçirilməsinə ən azı 2 (iki) iş günü qalmış BFB-nin internet saytında (www.bfb.az) və Emitentin internet saytında (www.unibank.az) açıqlanır.BFB-nin fəaliyyəti AR Mülki Məcəlləsi, Qiymətli Kağızlar Bazarı haqqında AR Qanunu, Azərbaycan Respublikasının digər hüquqi-normativ aktları və BFB-nin nizamnaməsi və daxili Qaydaları ilə tənzimlənir.

Yerləşdiyi ünvan: City Point Biznes Mərkəzi, Cəlil Məmmədquluzadə küç, 102A, Bakı, Azərbaycan.
Elektron poçt ünvanı: info@bse.az
İnternet şəbəkəsində rəsmi səhifəsi: www.bfb.az
Tel: (+99412) 498 98 20.

**9.2 Market meyker(lər) barədə məlumat:**
İstiqrazların təkrar bazarda tədavülünün təmin edilməsi məqsədilə emitent tərəfindən gələcəkdə marketmeyker(lər) cəlb edilə bilər.

## 10. Kredit reytinqləri

**10.1 Reytinq prosesində emitentin sorğusu və ya emitentlə əməkdaşlıq nəticəsində emitent və ya onun borc qiymətli kağızları üçün təyin olunmuş kredit reytinqləri.** Təklif edilən istiqrazların reytinqi mövcud deyil.

## 11. Emitentin auditorları barədə məlumat

**11.1 Son üç maliyyə ili ərzində emitentin auditorlarının adı, ünvanları və hər hansı təşkilatda üzvlüyü barədə məlumat:**

| İl: | Auditorun adı: | Auditorun ünvanı: | Auditorun üzv olduğu təşkilat: |
|---|---|---|---|
| **2022** | "KPMG Audit Azərbaycan" | Port Baku Cənub Qülləsi Neftçilər Prospekti 153 | KPMG International Limited |
| **2023** | "KPMG Audit Azərbaycan" | Port Baku Cənub Qülləsi Neftçilər Prospekti 153 | KPMG International Limited |
| **2024** | "KPMG Audit Azərbaycan" | Port Baku Cənub Qülləsi Neftçilər Prospekti 153 | KPMG International Limited |

**11.2 Son üç maliyyə ili ərzində auditorların əvəzlənməsi və ya dəyişdirilməsi barədə, səbəbləri göstərilməklə, məlumat:**
Öncəki illər bankın kənar auditoru qismində "KPMG Audit Azərbaycan" çıxış edib. Bankın kənar auditi eyni auditor tərəfindən dəyişmədən 5 il ərzində həyata keçirildiyindən, "Bankların və xarici bankların yerli filiallarının kənar auditinin aparılmasına dair tələblər haqqında Qaydalar"ın 5.6-cı bəndindən irəli gələn yanaşmaya əsasən 2025-ci ildən etibarən bankın kənar auditoru Deloitte&Touche şirkəti seçilmişdir. Qeyd edək ki, 2025-ci ilə aid maliyyə məlumatları audit edilməyib, proses başa çatdıqdan sonra "Banklar haqqında Qanun"un 45.1-ci maddəsinin tələblərinə uyğun olaraq Mərkəzi Banka təqdim ediləcək və dərc ediləcəkdir.

## 12. Emitent barədə məlumat

**12.1 Emitentin tam adı, təşkilati-hüquqi forması:** "Unibank Kommersiya Bankı" Açıq Səhmdar Cəmiyyəti

**12.2 Emitentin dövlət qeydiyyatının rekvizitləri:**
Emitent 14 dekabr 2010-cu il tarixli Azərbaycan Respublikası Milli Bankı (hazırda Mərkəzi Bankı) tərəfindən müddətsiz olaraq verilmiş 73 saylı bank lisenziyası əsasında fəaliyyət göstərir. VÖEN: 1300017201

**12.3 Emitentin təşkilati-hüquqi forması dəyişdirildikdə, onun bütün əvvəlki**

**adları, təşkilati-hüquqi formaları, o cümlədən dəyişikliklərin qeydiyyat tarixi:** Emitent 27 iyul 1992-ci il tarixində Azərbaycan Respublikası Milli Bankı (hazırda Mərkəzi Bankı) tərəfindən dövlət qeydiyyatına alınmışdır və 15 oktyabr 2002-ci il tarixində "Promtexbank" Səhmdar Kommersiya Bankının qoşulduğu "Mbank" Kommersiya Bankı" Açıq Səhmdar Cəmiyyətinin hüquqi varisi olmaqla onun bütün hüquq və vəzifələrini əldə edib. 27 dekabr 2002-ci il tarixində Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən təsdiq edilmiş dəyişiklik əsasında Bank "Unibank" Kommersiya Bankı" Açıq Səhmdar Cəmiyyəti adlandırılmışdır.

**12.4 Emitentin olduğu yer, poçt ünvanı, elektron poçt ünvanı, emitentin internetsəhifəsinin ünvanı və əlaqə telefonları:**

Qeydiyyat ünvanı: Azərbaycan Respublikası, Bakı şəh., AZ1014, R.Behbudov küç., 55, məhəllə 384

Elektron poçt ünvanı: bank@unibank.az

İnternet səhifəsi: www.unibank.az

Əlaqə telefonları: (99412) 117, (99412) 498 22 44

**12.5 Emitentin qiymətli kağızlarının ticarətə buraxıldığı tənzimlənən bazarlar barədə məlumat:**

Emissiya prosesində iştirak edən "Bakı Fond Birjası" QSC (bundan sonra-BFB) yeni emissiya edilmiş istiqrazların ticarətə qəbul edilməsi, listinqə daxil edilməsi, hərrac vasitəsilə istiqrazların ilkin yerləşdirilməsi, həmçinin təkrar bazarda alqı-satqısı üçün peşəkar kütləvi ticarəti təşkil edir.

BFB 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 21 iyul 2000-ci il tarixli "fond birjası fəaliyyəti"ni həyata keçirməyə icazə verən 5 saylı müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin peşəkar təşkilatçısı kimi fəaliyyət göstərir. BFB Qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarəti təşkil edir.

Yerləşdiyi ünvan: City Point Biznes Mərkəzi, Cəlil Məmmədquluzadə küç, 102A, Bakı, Azərbaycan

Elektron poçt ünvanı: info@bse.az

Internet şəbəkəsində rəsmi səhifəsi: www.bfb.az

Tel: (+99412) 498 98 20

BFB-nin fəaliyyəti AR Mülki Məcəlləsi, Qiymətli Kağızlar Bazarı haqqında AR Qanunu, Azərbaycan Respublikasının digər hüquqi-normativ aktları və BFB-nin nizamnaməsi və daxili Qaydaları ilə tənzimlənir.

## 13. Emitentin biznesinin icmalı

**13.1 Emitentin əsas fəaliyyət istiqaməti:**

Emitentin əsas fəaliyyət istiqaməti bank fəaliyyətidir. Eyni zamanda, milli və xarici valyutada fiziki və hüquqi şəxslərdən depozitlərin və ya digər qaytarılan vəsaitlərin cəlb edilməsi, öz adından və öz hesabına kreditlərin verilməsi, habelə müştərilərin tapşırığı ilə köçürmə və hesablaşma-kassa əməliyyatlarının məcmu halda həyata keçirilməsi, Nizamnaməsində, bank lisenziyasında və qanunvericilikdə nəzərdə tutulmuş digər fəaliyyət növləri ilə məşğul olur.

**13.2 Emitentin satılmış məhsullarının və ya göstərilmiş xidmətlərinin əsas kateqoriyalarını göstərərək emitentin əsas fəaliyyətlərinin təsviri:**

Əsas məqsədin icrası ilə əlaqədar aşağıdakı fəaliyyətləri həyata keçirir:

- Azərbaycan Respublikasının iqtisadiyyatının və ölkədə bank işinin inkişafına və ölkənin dünya iqtisadiyyatına inteqrasiyasına köməklik göstərmək;
- Bank, maliyyə və sərmayə qoyuluşu sahəsində xidmətlər göstərmək;
- Sahibkarlıq fəaliyyətinin inkişafına yönəlmiş yerli və xarici sərmayələrin və kreditlərin cəlb edilməsini təmin etmək;
- Öz vəsaitlərini, hüquqi və ayrı-ayrı fiziki şəxslərdən cəlb olunmuş vəsaitləri Azərbaycan iqtisadiyyatının və Emitentin öz fəaliyyətinin inkişafına yönəltmək;
- Azərbaycan Respublikasının Qanunvericiliyinə, Emitentin Səhmdarlarının və müştərilərinin maraqlarına zidd olmayan Bank lisenziyasında nəzərdə tutulmuş maliyyə, kredit və digər sahibkarlıq fəaliyyətini həyata keçirmək.
- Azərbaycan Respublikasının Qanunvericiliyi və bank lisenziyası ilə müəyyən edilən hüdudlarda Emitent aşağıdakı Bank əməliyyatlarını həyata keçirmək hüququna malikdir:
- tələbli və müddətli depozitlərin, digər qaytarılan vəsaitlərin cəlb edilməsi;
- bütün növ təminatlı və təminatsız kreditlərin, o cümlədən istehlak və ipoteka kreditlərinin və digər kredit növlərinin verilməsi;
- faktorinq, forfeytinq və lizinq xidmətlərinin göstərilməsi;
- müştərilərin hesablarının açılması və aparılması;
- digər Banklar üçün müxbir hesabların açılması və aparılması;
- klirinq, hesablaşma-kassa xidmətləri, pul vəsaitinin, qiymətli kağızların və ödəniş vasitələrinin köçürülməsi üzrə xidmətlərin göstərilməsi;
- ödəniş vasitələrinin, o cümlədən debet və kredit kartların, yol çeklərinin, veksellərin və digər oxşar vasitələrin buraxılması;
- öz hesabına və ya müştərilərin hesabına maliyyə vasitələrinin, o cümlədən çeklərin, köçürmə veksellərinin, borc öhdəliklərinin və depozit sertifikatlarının, qiymətli metalların və qiymətli daşların, valyuta və faiz vasitələrinin, səhmlərin və digər qiymətli kağızların, forvard, svop və fyuçers müqavilələrinin, opsionların və valyutalara, səhmlərə, istiqrazlara, qiymətli metallara və faiz dərəcələrinə aid digər törəmə vasitələrin alınması və satılması;
- öz hesabına və ya müştərilərin hesabına valyuta mübadiləsi əməliyyatlarının həyata keçirilməsi;
- öhdəliklərin icrasına təminatların, o cümlədən qarantiyaların verilməsi və öz hesabına və ya müştərilərin hesabına akkreditivlərin açılması;
- maliyyə müşavirinin, maliyyə agenti və ya məsləhətçisi, o cümlədən qiymətli kağızlar portfelinin idarə edilməsi üzrə məsləhətçi xidmətlərin göstərilməsi;
- kreditlərə və kredit qabiliyyətinin yoxlanılmasına dair informasiya verilməsi və xidmətlər göstərilməsi;
- sənədləri və qiymətliləri, o cümlədən pul vəsaitlərini saxlanca qəbul etmək (xüsusi otaqlarda və ya seyf qutularında saxlamaq);
- qiymətli metalların əmanətə cəlb edilməsi və yerləşdirilməsi;
- qiymətlilərin, o cümlədən qiymətli kağızların, banknotların və sikkələrin inkassasiya edilməsi və göndərilməsi;
- Azərbaycan Respublikasının Qanunvericiliyinə, o cümlədən Azərbaycan Respublikası maliyyə bazarlarına nəzarət orqanının tətbiq olunan qərarlarına zidd olmayan hər hansı digər fəaliyyəti.

Son 3 il üzrə kredit portfelinin məhsullar üzrə bölgüsü, həmçinin cari hesablar və depozitlərə dair istifadəçilər üzrə məlumatlar aşağıdakılardır:

| • | 2023 | 2024 | 2025 |
|---|---|---|---|
| **Kredit Portfeli** | **1,047,741** | **1,154,523** | **1,304,631** |
| İstehlak | 627,606 | 618,527 | 647,205 |
| Daşınmaz əmlak | 90,738 | 99,092 | 102,874 |
| Biznes | 329,397 | 436,904 | 554,552 |
| *o cümlədən mikro* | *150,862* | *182,879* | *245,044* |
| | | | |
| **Cari hesablar** | **518,419** | **492,531** | **583,990** |
| Fiziki şəxslər | 290,105 | 292,601 | 366,484 |
| Hüquqi şəxslər | 215,259 | 187,401 | 201,892 |
| Sahibkarlar | 13,055 | 12,530 | 15,614 |
| | | | |
| **Müddətli depozitlər** | **697,473** | **712,129** | **793,947** |
| Fiziki şəxslər | 651,175 | 663,828 | 722,583 |
| Hüquqi şəxslər | 46,298 | 48,300 | 71,364 |

### 13.3 Təqdim olunmuş yeni məhsul və ya xidmətlər barədə məlumat, onların inkişaf statusu:

**UCard** – "Unibank" KB ASC tərəfindən ölkədə ilk dəfə təqdim olunan innovasiyalı, kredit və multivalyutalı debet kartını özündə birləşdirən tək kartdır (həmçinin komissiyasız nağdlaşdırma imkanı, kart qalığına bonus, keşbek və s. imkanlara sahibdir). Bu kartda müxtəlif xarici valyutalar mövcuddur. Müştərilər asanlıqla bu valyutalar ilə istənilən vaxt əməliyyatlar apara bilərlər. Həmçinin müştəri, nağd krediti və kredit xəttini filiala gəlmədən birbaşa kartına əldə edə bilərlər. UCard mütəmadi olaraq təkmilləşdirilir. Gələcəkdə yeni funksiyaların tətbiq edilməsi planlaşdırılır.
**UBank** - banka getmədən, hər yerdə, istədiyin vaxtda, cəmi bir neçə saniyə ərzində müştərilərinə lazım olan bank xidmətlərindən istifadə etməyə imkan yaradan tətbiqdir. Tətbiqdə kommunal və digər ödənişlər, xarici pul köçürmələri və qəbulu etmək mümkündür. Bu tətbiq mütəmadi olaraq yenilənir və müştərilərə ən son dünya trendlərinə uyğun yeni funksionallıqlar təqdim edir.
**Leobank** – "Unibank" KB ASC-nin təqdim etdiyi, ölkənin ilk neobankı, filialı olmayan, yeni mobil bankçılıq xidmətidir. Rəqəmsal bankın məqsədi müştərilərin heç yerə getmədən, olduğu yerdən bank xidmətlərini müştərilərə təqdim etməkdir. Üstəlik, heç bir zamin tələbi olmadan, şəxsi məlumatları yalnız onlayn yoxlamaqla müştərilərə kredit xəttinin ayrılması imkanı yaradır. Leobankın məqsədi neobankçılığın daha geniş imkanlarını müştərilərə gələcəkdə təqdim etməkdir.

### 13.4 Emitentin rəqabət apardığı əsas bazarların təsviri:

"Unibank" KB ASC Azərbaycan Respublikasında bank fəaliyyəti həyata keçirən sistem əhəmiyyətli banklardan biridir. Bank aktivlərin həcmi, kredit portfeli, müştəri vəsaitləri, eləcə də buraxılmış ödəniş kartlarının sayı üzrə ölkənin aparıcı bankları sırasında yer alır. Geniş

filial şəbəkəsi, inkişaf etmiş alternativ satış kanalları və rəqəmsal platformaları vasitəsilə Bank həm ənənəvi, həm də rəqəmsal bankçılıq xidmətləri üzrə geniş müştəri bazasına xidmət göstərir.

"Unibank" KB ASC həm pərakəndə bankçılıq, həm də korporativ bankçılıq seqmentlərində bazarın aparıcı iştirakçılarından biridir. Bankın əsas fəaliyyət istiqamətlərinə pərakəndə bankçılıq, kiçik və orta sahibkarlığın maliyyələşdirilməsi (KOS), mikro biznes və korporativ bankçılıq xidmətləri daxildir. Bank xüsusilə istehlak kreditləri, kart məhsulları, elektron bankçılıq xidmətləri və rəqəmsal ödəniş həlləri üzrə bazarda aktiv mövqeyə malikdir.

"Unibank" KB ASC Azərbaycan bank sektorunda aparıcı özəl banklardan biri kimi fəaliyyət göstərir. Bank aktivlər, kredit portfeli, depozit bazası və ödəniş kartları üzrə bazarın ön sıralarında yer alır. Xüsusilə pərakəndə və rəqəmsal bankçılıq seqmentlərində güclü mövqeyə malik olan Bank, innovativ məhsul və xidmətləri, geniş rəqəmsal ekosistemi və inkişaf etmiş satış kanalları vasitəsilə bazardakı rəqabət qabiliyyətini qoruyub saxlayır. Eyni zamanda, KOS və mikro biznes seqmentlərində aktiv iştirak etməklə sahibkarlığın maliyyələşdirilməsi istiqamətində bazarın əsas iştirakçılarından biri kimi çıxış edir.

Pərakəndə bankçılıq seqmentində Bank əsasən "Kapital Bank" ASC, "Bank of Baku" ASC, "Expressbank" ASC və "Rabitəbank" ASC ilə rəqabət aparır. Korporativ bankçılıq, KOS və mikro biznes seqmentlərində isə əsas rəqiblər sırasında "PASHA Bank" ASC, "AccessBank" QSC, "Bank Respublika" ASC, "Yelo Bank" ASC və digər bazar iştirakçıları yer alır.

***Mənbə***: https://aba.az/banklar/renkinql%c9%99r/

Son illərdə Azərbaycan bank sektorunda rəqabət mühiti daha da güclənmişdir. Maliyyə xidmətlərinin rəqəmsallaşması, mobil bankçılıq həllərinin geniş yayılması və müştəri davranışlarında baş verən dəyişikliklər banklar arasında texnoloji üstünlük və xidmət keyfiyyəti üzrə rəqabəti artırmışdır. Bu tendensiya xüsusilə onlayn kreditləşmə, rəqəmsal onboarding, real vaxt rejimində ödəniş sistemləri və kart ekosistemləri sahəsində daha qabarıq şəkildə müşahidə olunur.

Bununla yanaşı, Azərbaycan Respublikasında bank sektoruna yeni texnoloji şirkətlərin və FinTech həllərinin daxil olması rəqabət mühitini daha da gücləndirir. Xüsusilə startap ekosisteminin inkişafı nəticəsində bank xidmətlərinə alternativ rəqəmsal platformaların yaranması müşahidə olunur. Bu şirkətlər əsasən ödəniş xidmətləri, rəqəmsal kredit platformaları, elektron pul kisələri və inteqrasiya olunmuş maliyyə həlləri sahəsində fəaliyyət göstərərək ənənəvi banklarla həm rəqabət, həm də əməkdaşlıq münasibətləri formalaşdırırlar.

Eyni zamanda, bank sektoruna daxilolma üçün kapital tələblərinin yüksək olması səbəbindən yeni bazar iştirakçılarının əksəriyyəti fəaliyyətlərini mövcud banklarla tərəfdaşlıq modeli əsasında qururlar. Bununla yanaşı, xarici bazarlarda uğur qazanmış FinTech şirkətlərinin Azərbaycan maliyyə bazarına daxil olması perspektivi də gələcəkdə rəqabətin daha da güclənəcəyini göstərir.

"Unibank" KB ASC beynəlxalq maliyyə institutları ilə əməkdaşlıq edərək xarici maliyyə resurslarının cəlb olunması istiqamətində də aktiv fəaliyyət göstərir. Bu isə Bankın maliyyə dayanıqlığının və rəqabət qabiliyyətinin gücləndirilməsinə xidmət edən əsas amillərdən biridir.

"Unibank" KB ASC bazarda həm ənənəvi bank məhsulları, həm də rəqəmsal bankçılıq həlləri üzrə mövqeyini gücləndirməyə, rəqabət üstünlüyünü qorumağa və davamlı şəkildə inkişaf etdirməyə yönəlmiş strategiya həyata keçirir.

**13.5 Emitentin rəqabət mövqeyinə dair bəyanatı olduğu halda onun əsaslandırması:** Mövcud deyil.

## 14. Digər təşkilatlarda iştirak

### 14.1 Emitentin digər hüquqi şəxslərdə mövqeyinin qısa təsviri:

"Unicapital" İnvestisiya Şirkəti Açıq Səhmdar Cəmiyyəti (səhmdar). Emitentin ASC-nin nizamnamə kapitalında payı 100% təşkil edir. Ünvan: Azərbaycan Respublikası, Bakı şəhəri, Rəşid Behbudov küç. 55 384-cü məhəllə. VÖEN: 1401258741
"Unicapital İnvestisiya Şirkəti" ASC, lisenziya əsasında, əsas və yardımçı investisiya xidmətləri göstərir, o cümlədən yerli və xarici bazarlarda qiymətli kağızlarla əməliyyatlar, anderraytinq, investisiya məsləhəti və portfel idarəçiliyi sahələrində fəaliyyət göstərir. Unicapitalda iştirak, emitent üçün kapital bazarları istiqamətində fəaliyyətin genişləndirilməsi, bazara birbaşa çıxış imkanının olması, bank və investisiya xidmətləri arasında sinerjinin yaradılması və müştərilərə daha geniş maliyyə məhsulları təklif edilməsi baxımından əhəmiyyət kəsb edir. "Unibank" KB ASC-nin nizamnamə kapitalındakı payı 100 faiz təşkil etdiyindən, "Unicapital İnvestisiya Şirkəti" ASC-nin ali idarəetmə orqanında qərarların qəbul edilməsi zamanı səsvermə hüququ həmin iştirak payına mütənasib olaraq tam həcmdə Banka məxsusdur. Əlavə olaraq, "Unicapital İnvestisiya Şirkəti" ASC rəhbərliyində "Unibank" KB ASC-nin rəhbərliyindən şəxslər təmsil olunur.

"MilliKart" Məhdud Məsuliyyətli Cəmiyyət (payçı). Emitentin MMC-nin nizamnamə kapitalında payı 6.67 % təşkil edir. Ünvan: Azərbaycan Respublikası, Bakı şəh., Alı Mustafayev, 5A. VÖEN: 1400980591

S.W.I.F.T (Ümumdünya Banklararası Maliyyə Telekommunikasiya Cəmiyyəti). SWIFT korporativ üzvlüyə malik olan və təhlükəsiz maliyyə mesajlaşma xidmətləri üzrə dünyanın aparıcı provayderidir. Emitentin onun nizamnamə kapitalında payı 3,43% təşkil edir. SWIFT-in mesajlaşma xidmətləri dünyanın 200-dən çox ölkəsində və ərazilərində 11000-dən çox maliyyə qurum tərəfindən istifadə olunur və etibarlıdır. SWIFT-in standartlaşdırma sahəsində rolu banklar və digər maliyyə institutları arasında təhlükəsiz, maneəsiz və avtomatlaşdırılmış maliyyə əlaqələrini təmin etməkdir. Ünvan: 1, Avenue Adèle, B-1310 La Hulpe (Belçika) RPM Nivelles – VAT BE 0413.330.856 e-mail: shareholding@swift.com Fax: +32 2 655 4036; Tel: +32 2 655 4490 (https://www.swift.com)

Azərbaycan Kredit Bürosu MMC. Emitentin MMC-nin nizamnamə kapitalında payı 12.50 % təşkil edir. Ünvan:Bakı şəhəri, S.Vurgun küçəsi 43, VÖEN 1305349901.
Azərbaycan Banklar Assosiyasiyasi (ABA) - üzv
Azərbaycan Respublikasının Ticarət-Sənaye Palatası – üzv
Azərbaycanda Amerika Ticarət Palatası (AMCHAM) – üzv
Alman Azərbaycan Xarici Ticarət Palatası İctimai Birliyi – üzv

**14.2 Emitentin qrupdakı digər müəssisələrdən asılı olduğu təqdirdə bu barədə məlumat:** Belə bir hal mövcud deyil.

## 15. Tendensiyalar barədə məlumat

**15.1 Audit edilmiş maliyyə hesabatlarının son dərc olunma tarixindən etibarən emitentin emissiya prospektində mənfi dəyişikliyin olub-olmaması barədə məlumat:** Maliyyə hesabatlarının son dərc olunma tarixindən etibarən emissiya prospektinə mənfi təsir edə biləcək hər hansı əhəmiyyətli bir hadisə baş verməmişdir.

**15.2 Emitentin fəaliyyətinə cari maliyyə ili dövründə təsir etmə ehtimalı olan məlum tendensiyalar, qeyri-müəyyənliklər, tələblər, öhdəliklər və ya hadisələr barədə məlumat:**

Emitentin fəaliyyəti Azərbaycan Respublikasında formalaşan makroiqtisadi mühit, bank sektorunda müşahidə olunan rəqabət şəraiti, normativ-hüquqi tələblər, maliyyə bazarlarındakı dəyişikliklər və texnoloji inkişaf meyillərinin təsiri altında həyata keçirilir. Cari maliyyə ili ərzində emitentin maliyyə vəziyyətinə, fəaliyyət nəticələrinə və gələcək inkişaf perspektivlərinə təsir göstərə biləcək əsas tendensiyalar, qeyri-müəyyənliklər və hadisələr aşağıdakılardır:

Gələcək illərdə Azərbaycan iqtisadiyyatında real artım tempinin əsasən qeyri-neft sektoru hesabına davam edəcəyi gözlənilir. Dövlət investisiyalarının davam etməsi, əhalinin gəlirlərində artım, istehlak və biznes aktivliyinin genişlənməsi bank xidmətlərinə olan tələbin qorunmasına müsbət təsir göstərir. Xüsusilə istehlak kreditləri, ödəniş kartları, rəqəmsal bankçılıq xidmətləri, eləcə də mikro, kiçik və orta sahibkarlığın maliyyələşdirilməsi üzrə artım meyllərinin davam edəcəyi proqnozlaşdırılır. Bununla yanaşı, qlobal iqtisadi artım tempinin zəifləməsi, enerji qiymətlərində volatillik və beynəlxalq geosiyasi risklər ölkə iqtisadiyyatının inkişaf tempinə və bank sektorunun fəaliyyətinə dolayı təsir göstərə bilər.

İnflyasiya səviyyəsi və faiz dərəcələrinin dinamikası emitentin maliyyə nəticələrinə təsir edən əsas makroiqtisadi amillərdəndir. İnflyasiya təzyiqlərinin artması və ya monetar siyasət alətlərində dəyişikliklər kredit və depozit məhsulları üzrə faiz dərəcələrinin yenidən formalaşmasına səbəb ola bilər. Bu isə faiz marjasının səviyyəsinə, maliyyələşmə xərclərinə və borcalanların ödəmə qabiliyyətinə təsir göstərə bilər.

Azərbaycan manatının ABŞ dollarına münasibətdə sabit məzənnə rejiminin qorunması valyuta risklərini məhdudlaşdırsa da, beynəlxalq enerji bazarlarında və xarici maliyyə bazarlarında baş verə biləcək dəyişikliklər valyuta bazarına və müştərilərin davranışına dolayı təsir göstərə bilər. Xarici valyutada olan aktiv və öhdəliklərin həcmi nəzərə alınmaqla, valyuta bazarındakı dəyişikliklər emitentin maliyyə göstəricilərinə müəyyən təsir yarada bilər.

Azərbaycan bank sektorunda rəqabətin daha da güclənməsi müşahidə olunur. Xüsusilə rəqəmsal xidmətlər, istehlak kreditləri, kart məhsulları və gündəlik bank xidmətləri seqmentlərində rəqabətin artması faiz marjalarının və komissiya gəlirlərinin səviyyəsinə təsir göstərə bilər. Emitent müştəri bazasının genişləndirilməsi, məhsul çeşidinin artırılması, xidmət keyfiyyətinin yüksəldilməsi və rəqəmsal kanalların inkişafı vasitəsilə bazar mövqeyini möhkəmləndirməyi hədəfləyir.

Cari maliyyə ili ərzində Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən prudensial tələblərdə, kapital adekvatlığı normalarında, likvidlik göstəricilərində, açıq valyuta mövqeyi üzrə limitlərdə, istehlak kreditləşməsi və digər istiqamətlər üzrə tənzimləyici dəyişikliklərin edilməsi mümkündür. Bu dəyişikliklər emitentin kapital tələblərinə, risk çəkili aktivlərinə, likvidlik mövqeyinə və biznes strategiyasına təsir göstərə bilər.

Bank sektorunda rəqəmsal transformasiya prosesinin sürətlənməsi emitentin fəaliyyətinə mühüm təsir göstərən amillərdən biridir. Mobil bankçılıq, internet bankçılıq, açıq API həlləri, məlumat analitikası və proseslərin avtomatlaşdırılması əməliyyat səmərəliliyinin artırılmasına və müştəri təcrübəsinin yaxşılaşdırılmasına xidmət edir. Bununla yanaşı, informasiya texnologiyalarına yatırımların artması və layihələrin icrası ilə bağlı xərclər qısamüddətli dövrdə əməliyyat xərclərinin artmasına səbəb ola bilər.

Rəqəmsal xidmətlərin genişlənməsi ilə əlaqədar olaraq kiber təhlükəsizlik, məlumatların qorunması və rəqəmsal dələduzluq riskləri də aktuallığını saxlayır. Belə risklərin reallaşması maliyyə itkilərinə, hüquqi öhdəliklərə və emitentin nüfuzuna mənfi təsir göstərə bilər. Emitent bu risklərin idarə olunması məqsədilə informasiya təhlükəsizliyi sistemlərinin təkmilləşdirilməsi və daxili nəzarət mexanizmlərinin gücləndirilməsi istiqamətində davamlı tədbirlər həyata keçirir.

Makroiqtisadi şəraitdə baş verə biləcək dəyişikliklər, o cümlədən iqtisadi artım tempinin zəifləməsi, faiz yükünün artması və müəyyən iqtisadi sektorlar üzrə risklərin yüksəlməsi kredit portfelinin keyfiyyətinə təsir göstərə bilər. Bu isə problemli kreditlərin artmasına və ehtiyat ayırmalarının çoxalmasına səbəb ola bilər. Emitent kredit portfelinin keyfiyyətinin qorunması məqsədilə risklərin qiymətləndirilməsi və monitorinqi proseslərini davamlı olaraq təkmilləşdirir.
Depozit portfelinin strukturunda və dinamikasında baş verən dəyişikliklər, beynəlxalq maliyyə institutlarından və digər mənbələrdən cəlb olunan vəsaitlərin şərtləri, habelə daxili və xarici maliyyə bazarlarına çıxış imkanları emitentin likvidlik mövqeyinə və maliyyələşmə xərclərinə təsir göstərə bilər. Xüsusilə, müştəri vəsaitlərinin artım tempinin zəifləməsi, iri məbləğli vəsaitlərin vaxtından əvvəl geri çəkilməsi və ya maliyyələşmə mənbələrinin dəyərinin yüksəlməsi likvidlik göstəricilərinə və faiz marjasına müəyyən təsir göstərə bilər. Emitent maliyyələşmə mənbələrinin diversifikasiyası, likvid aktivlərin adekvat səviyyədə saxlanılması və prudensial likvidlik göstəricilərinin davamlı monitorinqi vasitəsilə likvidlik riskini idarə edir.
Nağdsız ödənişlərin həcminin artması, müştərilərin rəqəmsal kanallardan istifadəsinin genişlənməsi və maliyyə xidmətlərinə dair davranış modellərinin dəyişməsi bank sektorunda struktur transformasiyasını sürətləndirir. Bu tendensiyalar emitentin strateji inkişaf planları ilə uzlaşır və yeni gəlir imkanları yaradır.
Yuxarıda qeyd olunan amillər nəzərə alınmaqla, emitent hesab edir ki, cari maliyyə ili ərzində fəaliyyətinə təsir göstərə biləcək əsas risklər və qeyri-müəyyənliklər mövcud olsa da, tətbiq olunan risk idarəetmə sistemi, kapital və likvidlik mövqeyi, eləcə də strateji inkişaf istiqamətləri emitentin fəaliyyətinin dayanıqlılığını təmin etmək üçün kifayət qədər əsas yaradır.

## 16. Gəlir proqnozu

Mövcud deyil.

## 17. Emitentin idarəetmə və nəzarət orqanları

### 17.1 Emitentin idarəetmə və nəzarət orqanlarının hər bir üzvü barədə aşağıdakı məlumatlar:

**17.1.1 adı, soyadı, atasının adı;**

**17.1.2 funksiyaları;**

**17.1.3 xidməti vəzifələri ilə şəxsi maraqları arasında ziddiyyət yarana biləcəyi hallarda maraqların toqquşması barədə hesabat:**

**Emitentin ali idarəetmə orqanı:** Səhmdarların Ümumi Yığıncağıdır. Səhmdarların Ümumi Yığıncağı illik və növbədənkənar keçirilir. Emitentin səhmdarlarının ümumi sayı 7-dir: Eyvazov Fuad Camal oğlu (0.0008 %), Qəribli İlkin Eldar oğlu (1.7685 %), Qəribov Eldar Mahmud oğlu (94.0763 %), Hüseynov Faiq Arif oğlu (0.3035 %), Quliyev Emin Natiq oğlu (2.973 %), Əliyeva Səxavət Bəylər qızı (0.0071 %) və İvaşenko İnna Vladimirovna (0.8707 %)

Səhmdarların Ümumi Yığıncağının müstəsna səlahiyyətlərinə aşağıdakılar daxildir:
- Bankın Nizamnaməsini qəbul etmək, Nizamnaməyə əlavə və dəyişikliklər etmək;
- Bankın reqlamentini qəbul etmək, reqlamentə əlavə və dəyişikliklər etmək;
- Bankın faiz dərəcələri, aktivlərin yerləşdirilməsi və kateqoriyaları barəsində siyasətini, habelə - Bankın ümumi maliyyə, uçot, inzibati və kadr siyasətini müəyyənləşdirmək;
- Digər hüquqi şəxslərin kapitalında Bankın iştirakı barədə qərarlar qəbul etmək, Bankın

filiallarını, şöbələrini və nümayəndəliklərini yaratmaq və fəaliyyətlərinə xitam vermək, onların əsasnamələrini təsdiq etmək;
- Növbəti və tələb olunduğu hallarda növbədənkənar auditin keçirilməsi barədə qərar qəbul etmək və bu məqsədlə kənar auditoru təyin etmək;
- Bankın büdcəsini qəbul və təsdiq etmək;
- Bankın İdarə Heyətinin üzvlərini təyin və azad etmək, İdarə Heyətinin əsasnaməsini təsdiq etmək;
- Bankın Müşahidə Şurasının üzvlərini təyin və azad etmək, Müşahidə Şurasının əsasnaməsini təsdiq etmək və Müşahidə Şurası üzvləri ilə əmək münasibətləri barədə qərar vermək;
- Müşahidə Şurası üzvlərinin səlahiyyətləri istisna olmaqla, Bankın inzibatçılarının Bank adındanvə Bank hesabına öhdəliklər qəbul etmək səlahiyyətlərini və həmin səlahiyyətlərin Bankın digər əməkdaşlarına verilməsi hüququnun hədlərini müəyyənləşdirmək;
- Bank inzibatçılarının kommersiya maraqlarını açıqlaması haqqında qaydaları və həmin qaydalara dəyişiklik və əlavələri qəbul etmək;
- Bankın törəmə təsərrüfat cəmiyyətlərini yaratmaq və fəaliyyətlərinə xitam vermək, başqa bankınsatın alınması barədə qərarlar qəbul etmək;
- Nizamnamə kapitalının artırılması və azaldılması barədə qərarlar qəbul etmək, Bank səhmlərinin buraxılması müddət və şərtlərini müəyyənləşdirmək, habelə Bankda mühüm iştirak payının əldə edilməsinə razılıq vermək;
- Bankın kənar auditor tərəfindən təsdiqlənmiş və Audit Komitəsi tərəfindən tövsiyə edilmiş illik maliyyə hesabatlarını təsdiq etmək, habelə xalis mənfəət hesabına ehtiyatların yaradılması və dividendlərin ödənilməsi barədə qərar qəbul etmək;
- Bankın satılması, yenidən təşkili və ləğvi barəsində qərarlar qəbul etmək;
- "Banklar haqqında" Azərbaycan Respublikası qanununun tələbləri nəzərə alınmaqla, Bankın inzibatçılarının işə götürülməsi müddət və şərtlərini müəyyən etmək;
- Azərbaycan Respublikasının qanunvericiliyi və Bankın Nizamnaməsi ilə Səhmdarların Ümumi Yığıncağının səlahiyyətinə aid edilmiş digər məsələləri həll etmək.

Emitentin Nizamnaməsi ilə müvafiq səlahiyyətlər Səhmdarların Ümumi Yığıncağının müstəsna səlahiyyətlərinə aid edilmiş məsələlər həll edilmək üçün Bankın Müşahidə Şurasına verilmişdir.

## Müşahidə Şurası barədə məlumat:

| | ASA | Hazırda tutduğu vəzifə | Son 5 il ərzində bu və ya digər hüquqi şəxslərdə tutduğu vəzifə | Funksiya |
|---|---|---|---|---|
| 1 | Qəribov Eldar Mahmud | **Müşahidə Şurasının Sədri** | Müşahidə Şurasının Sədri (Unibank KB) | Bankın idarə edilməsinə və fəaliyyətinə nəzarəti həyata keçirmək, o cümlədən, Bankın İdarə Heyətindən hesabat almaq, Banka ümumi rəhbərlik etmək və onun təşkilati strukturuna dair qərarlar qəbul etmək |
| 2 | Hüseynov Faiq Arif oğlu | **Üzv/MŞ Sədrinin müavini** | İdarə Heyətinin Sədri (Unibank KB) | Bankın idarə edilməsinə və fəaliyyətinə nəzarəti həyata keçirmək, o cümlədən, Bankın İdarə Heyətindən hesabat almaq, Banka ümumi rəhbərlik etmək və onun təşkilati strukturuna dair qərarlar qəbul etmək |
| 3 | Quliyev Emin Natiq oğlu | **Üzv** | "DİVİ Distribution Company" Baş direktor | Bankın idarə edilməsinə və fəaliyyətinə nəzarəti həyata keçirmək, o cümlədən, Bankın İdarə Heyətindən hesabat almaq, Banka ümumi rəhbərlik |

| | | | | |
|---|---|---|---|---|
| | | | | etmək və onun təşkilati strukturuna dair qərarlar qəbul etmək |
| 4 | Kamen Zahariyev | **Müstəqil Üzv** | Access Microfinance Holding AG, Müşahidə Şurasının sədri | Bankın idarə edilməsinə və fəaliyyətinə nəzarəti həyata keçirmək, o cümlədən, Bankın İdarə Heyətindən hesabat almaq, Banka ümumi rəhbərlik etmək və onun təşkilati strukturuna dair qərarlar qəbul etmək |
| 5 | Verner Klaes | **Müstəqil üzv** | BVBA Global Financial Consulting | Bankın idarə edilməsinə və fəaliyyətinə nəzarəti həyata keçirmək, o cümlədən, Bankın İdarə Heyətindən hesabat almaq, Banka ümumi rəhbərlik etmək və onun təşkilati strukturuna dair qərarlar qəbul etmək |

## İdarə Heyəti barədə məlumat:

| | ASA | Hazırda tutduğu vəzifə | Son 5 il ərzində bu və ya digər hüquqi şəxslərdə tutduğu vəzifə | Funksiya |
|---|---|---|---|---|
| 1 | Qədirov Heybət Həsənağa | **İdarə Heyəti Sədrinin vəzifələrini müvəqqəti icra edən/ Baş Əməliyyat İnzibatçısı** | 06-04-2018/26-11-2018 – Pərakəndə Biznesin İnkişafı Departamentinin Direktoru (Unibank KB)<br><br>27-11-2018/31-01-2019 - Biznesin İnkişafı Departamentinin Direktoru (Unibank KB),<br><br>01.02.2019/23-11-2021 -Pərakəndə Biznes üzrə Baş İnzibatçı (Unibank KB),<br><br>24-11-2021/28-12-2021-Pərakəndə Biznes üzrə Baş İnzibatçı/ İcraçı Direktorun birinci müavini (Unibank KB),<br><br>29-12-2021/04-01-2023 - İdarə Heyətinin üzvü/ İcraçı Direktorun Birinci müavini (Unibank KB).<br><br>05-01-2023/hazırda - İdarə Heyətinin üzvü/İdarə Heyətinin Sədrinin Müavini/İcraçı Direktorun birinci Müavini | Bankın idarə olunması və fəaliyyətinin həyata keçirir. Bankın idarə olunması və fəaliyyətinin həyata keçirilməsi ilə bağlı olan və Səhmdarların Ümumi Yığıncağının və Müşahidə Şurasının səlahiyyətlərinə aid olmayan səlahiyyətlər aiddir. İdarə heyətinin səlahiyyətləri Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyi, Bankın Nizamnaməsi və İdarə heyətini əsasnaməsi ilə müəyyən olunur. |
| 3 | Zeynalov Faiq Vahib oğlu | **Üzv** | 01-08-2012/30-06-2021 -Audit komitəsinin Sədri (Unibank KB),<br><br>01-07-2021/bugünədək -İdarə Heyətinin üzvü/Baş maliyyə inzibatçısı (Unibank KB). | Bankın idarə olunması və fəaliyyətinin həyata keçirir. Bankın idarə olunması və fəaliyyətinin həyata keçirilməsi ilə bağlı olan və Səhmdarların Ümumi Yığıncağının və Müşahidə Şurasının səlahiyyətlərinə aid olmayan səlahiyyətlər aiddir. İdarə heyətinin səlahiyyətləri Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyi, Bankın Nizamnaməsi və İdarə heyətini əsasnaməsi ilə müəyyən olunur |
| 3 | Grab Andrey Romanoviç | **Üzv /Baş Risk İnzibatçısı** | 04-2019/07-2021 – Risklərin idarə edilməsi üzrə Direktor (Kredit Siyasəti) (Home Credit CFC - Çin)<br><br>09-2021/02-2024 – Direktor, Pərakəndə Risk Rəhbəri (OTP Bank ASC – Rusiya)<br><br>02-2024/01-2025 – Baş Risk İnzibatçısı (İDF Lab MMC (Solva Group) – Rusiya) | Bankın idarə olunması və fəaliyyətinin həyata keçirir. Bankın idarə olunması və fəaliyyətinin həyata keçirilməsi ilə bağlı olan və Səhmdarların Ümumi Yığıncağının və Müşahidə Şurasının səlahiyyətlərinə aid olmayan səlahiyyətlər aiddir. İdarə heyətinin səlahiyyətləri Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyi, Bankın Nizamnaməsi və İdarə heyətini əsasnaməsi ilə müəyyən olunur |

| | | | | |
|---|---|---|---|---|
| | | | 15-04-2025/hazırda - İdarə Heyətinin üzvü/Baş Risk İnzibatçısı (Unibank KB) | |
| 4 | Quliyev İlkin Alik oğlu | Üzv /Baş Risk İnzibatçısı | 01-03-2021/07-06-2022 – Pərakəndə Bankçılıq üzrə İcraçı direktor (AccessBank QSC)<br><br>07-06-2022/06-07-2023 – İdarə Heyətinin üzvü, Pərakəndə Bankçılıq üzrə İcra Direktor (AccessBank QSC)<br><br>06-07-2023/01-04-2025 – İdarə Heyətinin üzvü (AccessBank QSC)<br><br>04-04-2025/29-12-2025 - Baş Biznes İnzibatçısı (Unibank KB)<br><br>30-12-2025/hazırda - İdarə Heyətinin üzvü/Pərakəndə biznes və Marketinq üzrə Baş İnzibatçı | Bankın idarə olunması və fəaliyyətinin həyata keçirir. Bankın idarə olunması və fəaliyyətinin həyata keçirilməsi ilə bağlı olan və Səhmdarların Ümumi Yığıncağının və Müşahidə Şurasının səlahiyyətlərinə aid olmayan səlahiyyətlər aiddir. İdarə heyətinin səlahiyyətləri Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyi, Bankın Nizamnaməsi və İdarə heyətini əsasnaməsi ilə müəyyən olunur |

## Audit komitəsi barədə məlumat:

| | ASA | Hazırda tutduğu vəzifə | Son 5 il ərzində bu və ya digər hüquqi şəxslərdə tutduğu vəzifə | Funksiyalar |
|---|---|---|---|---|
| 1 | Kamen Zahariyev | **Audit Komitəsinin Sədri** | Access Microfinance Holding AG, Müşahidə Şurasının sədri<br>Müşahidə Şurasının Müstəqil üzvü (Unibank KB)<br>Audit Komitesinin Sədri | Bankın audit siyasətini və strategiyasını müəyyən etmək, daxili audit planlarını təsdiq etmək və audit bölməsinin fəaliyyətinə nəzarəti həyata keçirmək, kənar auditin təyin edilməsi ilə əlaqədar bankın səlahiyyətli idarəetmə orqanlarına təkliflər vermək, kənar auditlə birgə işi təşkil etmək, auditin nəticə və tövsiyələrinin həyata keçirilməsinə yardım etmək, bankın idarəetmə orqanları ilə kənar auditorlar, habelə nəzarət orqanları arasında əlaqələr qurmaq, daxili nəzarət sistemlərinin təkmilləşdirilməsinə dair Səhmdarların Ümumi Yığıncağına və Müşahidə Şurasına təkliflər vermək, maliyyə bazarlarına nəzarət orqanının normativ xarakterli aktları, Bankın Nizamnaməsi və öz əsasnaməsi ilə nəzərdə tutulmuş digər səlahiyyətləri həyata keçirmək. |
| 2 | Balayev Samir Həsən oğlu | **Audit Komitəsinin müstəqil kənar üzvü** | 2017/30-06-2021-Müşahidə Şurası Sədrinin Müşaviri (Unibank KB),<br><br>01-07-2021/ 13-09-2024-Audit komitəsinin Sədri(Unibank KB).<br><br>13-09-2024/bugünədək-Audit komitəsinin Sədrinin müavini (Unibank KB). | Bankın audit siyasətini və strategiyasını müəyyən etmək, daxili audit planlarını təsdiq etmək və audit bölməsinin fəaliyyətinə nəzarəti həyata keçirmək, kənar auditin təyin edilməsi ilə əlaqədar bankın səlahiyyətli idarəetmə orqanlarına təkliflər vermək, kənar auditlə birgə işi təşkil etmək, auditin nəticə və tövsiyələrinin həyata keçirilməsinə yardım etmək, bankın idarəetmə orqanları ilə kənar auditorlar, habelə nəzarət orqanları arasında əlaqələr qurmaq, daxili nəzarət sistemlərinin təkmilləşdirilməsinə dair Səhmdarların Ümumi Yığıncağına və Müşahidə Şurasına təkliflər vermək, maliyyə bazarlarına nəzarət orqanının normativ xarakterli aktları, Bankın Nizamnaməsi və öz əsasnaməsi ilə nəzərdə tutulmuş digər səlahiyyətləri həyata keçirmək. |
| 3 | Tağıyeva Səbinə Ramizovna | **Audit Komitəsinin müstəqil kənar üzvü** | 2017/2018-Layihələr və konsaltinq dep-n Müdiri (V. E. S. Consultancy LLC-**Əsas iş yeri**)<br><br>2018/bugünədək-Maliyyə və konsultasiya üzrə Direktor müavini (Vneshexpertservice LLC-**Əsas iş yeri**) | Bankın audit siyasətini və strategiyasını müəyyən etmək, daxili audit planlarını təsdiq etmək və audit bölməsinin fəaliyyətinə nəzarəti həyata keçirmək, kənar auditin təyin edilməsi ilə əlaqədar bankın səlahiyyətli idarəetmə orqanlarına təkliflər vermək, kənar auditlə birgə işi təşkil etmək, auditin nəticə və tövsiyələrinin həyata keçirilməsinə yardım etmək, bankın idarəetmə orqanları ilə kənar auditorlar, habelə nəzarət orqanları arasında əlaqələr qurmaq, daxili nəzarət sistemlərinin |

| | | | | |
|---|---|---|---|---|
| | | | 2017/bugünədək-Audit komitəsinin üzvü (Unibank KB-Əlavə iş yeri) | təkmilləşdirilməsinə dair Səhmdarların Ümumi Yığıncağına və Müşahidə Şurasına təkliflər vermək, maliyyə bazarlarına nəzarət orqanının normativ xarakterli aktları, Bankın Nizamnaməsi və öz əsasnaməsi ilə nəzərdə tutulmuş digər səlahiyyətləri həyata keçirmək. |

Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 107-10.5-ci maddəsinə əsasən Cəmiyyətin icra orqanı üzvlərinin şəxsi marağı ilə cəmiyyətin maraqları arasında ziddiyyətlərə gətirib çıxara bilən,habelə Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 49-1.6-cı maddəsində nəzərdə tutulmuş hallarda cəmiyyətin icra orqanının rəhbəri və ya digər üzvləri müvafiq məlumatı cəmiyyətin direktorlar şurasına (müşahidə şurasına), o olmadıqda, səhmdarların ümumi yığıncağına yazılı şəkildə təqdim etməlidirlər. Cəmiyyətin maraqlarına zidd olan əqdlərin bağlanılması, müvafiq olaraq, Mülki Məcəllə, "Banklar haqqında" və "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanunları ilə ayrı qayda nəzərdə tutulmamışdırsa, müvafiq idarəetmə orqanının qərarı əsasında həyata keçirilə bilər.

## 18. Emitentin nizamnamə kapitalında mühüm iştirak payına sahib olan səhmdarlar

**18.1 Emitentin nizamnamə kapitalında on faizdən artıq iştirak payına sahib olan şəxslərin adları, ünvanları və vətəndaşlığı:**

Emitentin nizamnamə kapitalında 10 (on) faizdən artıq iştirak payı olan təsisçilərin payı aşağıdakı kimidir:

| A.S.A. | Adi səhmlərin sayı | % | Vətəndaşlıq | Ünvan |
|---|---|---|---|---|
| Qəribov Eldar Mahmud oğlu | 47799221 | 94.0763% | Azərbaycan | Bakı ş., Səbail ray., Zərifə Əliyeva küçəsi, ev 49, mənzil 25 |

**18.2 Mühüm iştirak payına sahib olan şəxslər tərəfindən emitentə nəzarətin xüsusiyyəti və bu nəzarətin sui-istifadə edilmədiyinə əmin olmaq üçün lazımi tədbirlərin təsviri:**

Emitentin ümumi fəaliyyətinə nəzarəti Səhmdarların Ümumi Yığıncağı və Müşahidə Şurası həyata keçirir. Azərbaycan Respublikasının "Banklar haqqında" Qanununun 40.3-cü bəndinə əsasən bankların aidiyyəti şəxslərə digər şəxslərdən fərqli olaraq güzəştli şərtlərlə bank xidmətlərinin göstərilməsi qadağandır. Eyni zamanda, Mülki Məcəllənin 49-1-ci maddəsində aidiyyəti şəxslərlə əqdlərin bağlanması qaydası nəzərdə tutulmuşdur.

Ümumi yığıncaqlararası dövrdə Emitentin idarə olunmasına və işinə nəzarəti Səhmdarların Ümumi Yığıncağı tərəfindən Emitentin səhmdarlarından və ya kənar şəxslərdən 3 (üç) il müddətinə 3 (üç) nəfərdən az olmamaqla, tək sayda üzvlərdən təyin edilmiş Müşahidə Şurası həyata keçirir.

**18.3 Mühüm iştirak payına sahib olan şəxslərin dəyişməsinə gətirə bilən və emitentə məlum olan əməliyyatlar barədə məlumat:**

Emitentin Nizamnaməsinə əsasən, mühüm iştirak payına sahib olan səhmdarlar, səhmdarların reyestrində onlara dair daxil edilmiş məlumatların dəyişilməsi barədə emitentə on gün ərzində yazılı bildiriş verməlidirlər.

## 19. Emitentin maliyyə məlumatları

### 19.1 Emitentin başa çatmış son iki maliyyə ili üzrə audit edilmiş maliyyə hesabatları:

2024-cü il hesabat linki:
https://unibank.az/uploads/documents/1748605474Unibank%202024%20FS%20signed-aze.pdf

2023-cü il hesabat linki:

https://unibank.az/uploads/documents/1718369813Unibank%20FY23%20FS%2005.22.2024_AZE%20updated%20signed.pdf

## MƏNFƏƏT VƏ YA ZƏRƏR VƏ DİGƏR MƏCMU GƏLİR HAQQINDA KONSOLİDƏ EDİLMİŞ HESABAT

*(min Azərbaycan manatı ilə)*

| | 31 dekabr 2024-ci il tarixində başa çatmış il üzrə | 31 dekabr 2023-ci il tarixində başa çatmış il üzrə |
|---|---|---|
| Effektiv faiz metodu ilə hesablanmış faiz gəliri | 227,826 | 206,499 |
| Faiz xərci | | (71,789) |
| **Faiz qazanan aktivlər üzrə ehtimal olunan kredit zərərlərindən əvvəl xalis faiz gəliri** | **150,289** | **134,710** |
| Faiz qazanan aktivlər üzrə ehtimal olunan kredit zərərləri | (45,571) | (29,071) |
| **Xalis faiz gəliri** | **104,718** | **105,639** |
| Haqq və komissiya gəliri | 110,694 | 93,605 |
| Haqq və komissiya xərci | (80,146) | (58,306) |
| Xarici valyuta əməliyyatları üzrə xalis gəlir | 14,227 | 11,337 |
| Törəmə maliyyə alətləri üzrə xalis zərər | (33) | (514) |
| Digər aktivlər üzrə dəyərsizləşmənin (zərəri)/bərpası | 1,915 | 267 |
| Zəmanətlər və kreditlə bağlı öhdəliklər üzrə ehtimal olunan kredit zərərlərinin (xərci)/bərpası | 683 | (480) |
| İlkin dəyərləndirmədə müştərilərə verilmiş kreditlər və müddətli borc vəsaitləri üzrə ədalətli dəyər gəliri | 0 | 0 |
| İnzibati və digər əməliyyat xərcləri | (129,260) | (111,074) |
| Digər əməliyyat gəlirləri, xalis | (1,421) | 2,321 |
| **Gəlir vergisindən əvvəlki mənfəət/(zərər)** | **21,377** | **42,795** |
| Mənfəət vergisinin (xərci)/bərpası | (4,798) | (11,724) |
| **İl üzrə (xalis zərər)/mənfəət** | **16,579** | **31,071** |
| **DİGƏR MƏCMU GƏLİR** | | |

| | | |
|---|---|---|
| **Sonradan mənfəət və ya zərər üzrə yenidən təsnifləşdiriləcək maddələr** | | |
| Borc investisiya qiymətli kağızları üzrə ədalətli dəyər zərəri | 358 | 252 |
| Birbaşa digər məcmu gəlirdə qeydə alınmış mənfəət vergisinin bərpası | (72) | (330) |
| **İl üzrə digər məcmu gəlir** | **286** | **(78)** |
| **İL ÜZRƏ CƏMİ MƏCMU ZƏRƏR** | **16,865** | **30,993** |

**MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA KONSOLİDƏ EDİLMİŞ HESABAT**
*(min Azərbaycan manatı ilə)*

| | 31 dekabr 2024-cü il | 31 dekabr 2023-ci il |
|---|---|---|
| **AKTİVLƏR** | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 227,158 | 286,965 |
| Digər banklardan alınacaq vəsaitlər | 36,179 | 24,129 |
| Müştərilərə verilmi kreditlər və avanslar | 1,127,107 | 992,992 |
| İnvestisiya qiymətli kağızları | 74,932 | 76,005 |
| Bina və avadanlıqlar | 108,375 | 99,989 |
| Qeyri-maddi aktivlər | 23,960 | 21,283 |
| Törəmə maliyyə aktivləri | | - |
| Digər maliyyə aktivləri | 115,789 | 91,283 |
| Digər aktivlər | 38,430 | 38,580 |
| **CƏMİ AKTİVLƏR** | **1,751,930** | **1,631,226** |
| **ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | |
| **ÖHDƏLİKLƏR** | | |
| Banklara və digər maliyyə təşkilatlarına ödəniləcək vəsaitlər | 117,707 | 21,186 |
| Müştəri hesabları | 1,198,133 | 1,235,237 |
| Müddətli borc vəsaitləri | 90,054 | 92,352 |
| Törəmə maliyyə öhdəlikləri | 1,079 | 1,562 |
| Təxirə salınmış mənfəət vergisi öhdəlikləri | 5,160 | 7,524 |
| Buraxılmış borc qiymətli kağızları | 68,176 | 61,248 |
| İcarə öhdəliyi | 9,568 | 10,137 |
| Digər öhdəliklər | 101,231 | 56,509 |
| **CƏMİ ÖHDƏLİKLƏR** | **1,591,108** | **1,485,755** |
| **KAPİTAL:** | | |
| Bank sahiblərinə məxsus kapital: | | |
| Səhmdar kapitalı | 138,200 | 138,200 |
| Səhm mükafatı | 484 | 484 |
| Digər ehtiyatlar | 144 | (2,693) |
| (Yığılmış zərər)/bölüşdürülməmiş mənfəət | 21,994 | 9,480 |
| **CƏMİ KAPİTAL** | **160,822** | **145,471** |

| | | |
|---|---|---|
| | 1,751,930 | 1,631,226 |

**CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL**

**KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA KONSOLİDƏ EDİLMİŞ HESABAT**

*(min Azərbaycan manatı ilə)*

| | Səhmdar kapitalı | Səhm mükafatı | Digər ehtiyatlar | Bölüşdürülməmiş mənfəət/(Yığılmış zərər) | Cəmi kapital |
|---|---|---|---|---|---|
| **1 yanvar 2023-ci il** | **138,200** | **484** | **(2,615)** | **(21,591)** | **114,478** |
| İl üzrə xalis mənfəət | - | - | - | 31,071 | 31,071 |
| İl üzrə digər məcmu zərər(Qeyd 9) | - | - | (78) | - | (78) |
| **31 dekabr 2023-ci il** | **138,200** | **484** | **(2,693)** | **9,480** | **145,471** |
| İl üzrə xalis mənfəət | - | - | - | 16,579 | 16,579 |
| İl üzrə digər məcmu gəlir (Qeyd 9) | - | - | 286 | - | 286 |
| DMG/ƏD-ə borc investisiyaları-Mənfəət və zərərə köçürülür | - | - | 2,551 | - | 2,551 |
| Bəyan edilmiş dividentlər(Qeyd 19) | - | - | - | (4,065) | (4,065) |
| **31 dekabr 2024-cü il** | **138,200** | **484** | **144** | **21,994** | **160,822** |

**PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA KONSOLİDƏ EDİLMİŞ HESABAT**

**31 DEKABR 2022-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ**

*(min Azərbaycan manatı ilə)*

| | 31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə | 31 dekabr 2023-cü il tarixində başa çatmış il üzrə |
|---|---|---|
| **ƏMƏLİYYAT FƏALİYYƏTLƏRİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ:** | | |
| Alınmış faizlər | 232,538 | 212,283 |
| Ödənilmiş faizlər | (76,384) | (66,946) |
| Alınmış haqq və komissiyalar | 110,694 | 93,605 |
| Ödənilmiş haqq və komissiyalar | (80,146) | (58,306) |
| Xarici valyuta üzrə xalis (zərər)/gəlir | 13,245 | 12,000 |
| Əldə olunmuş digər əməliyyat gəliri, xalis | 1,172 | 2,678 |
| Ödənilmiş inzibati və digər əməliyyat xərcləri | (112,558) | (103,973) |
| Ödənilmiş mənfəət vergisi | (7,048) | (41) |
| **Əməliyyat aktiv və öhdəliklərində dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitlərinin hərəkəti** | **81,513** | 91,300 |
| Əməliyyat aktivləri üzrə (artma)/azalma:: | | |
| Digər banklardan alınacaq vəsaitlər | (12,748) | (4,975) |
| Müştərilərə verilmiş kreditlər və avanslar | (181,012) | (182,533) |
| Digər maliyyə aktivləri | (24,590) | (27,782) |
| Digər aktivlər | (150) | 1,501 |
| Əməliyyat öhdəlikləri üzrə artma/(azalma): | | |
| Banklara və digər maliyyə qurumlarına ödəniləcək vəsaitlər | 96,560 | (55,089) |
| Müştəri hesabları | (30,844) | 219,014 |
| Digər öhdəliklər | 41,985 | 12,901 |
| **Əməliyyat fəaliyyəti üzrə əldə edilmiş xalis pul vəsaitləri** | **(29,286)** | 54,337 |
| **İNVESTİSİYA FƏALİYYƏTLƏRİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ:** | | |

| | | |
|---|---|---|
| İnvestisiya qiymətli kağızları üzrə (satınalınma)/daxilolmalar,xalis | 1342 | (1,344) |
| Bina, avadanlıq və qeyri-maddi aktivlərin alınması | (25,936) | (26,976) |
| Bina və avadanlıqların silinməsi üzrə daxilolmalar | 378 | 2,206 |
| **İnvestisiya fəaliyyətləri üzrə istifadə edilən xalis pul vəsaitləri** | **(24,216)** | (26,114) |
| **MALİYYƏLƏŞDİRMƏ FƏALİYYƏTLƏRİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ:** | | |
| Müddətli borc vəsaitləri üzrə daxilolmalar | 20,654 | 22,910 |
| Müddətli borc vəsaitlərinin ödənilməsi | (24,182) | (27,085) |
| Buraxılmış borc qiymətli kağızları üzrə daxilolmalar | 39,456 | 25,656 |
| Buraxılmış borc qiymətli kağızlarının ödənilməsi | (33,191) | (20,442) |
| İcarə öhdəliklərinin əsas hissəsinin ödənilməsi | (1,712) | (1,531) |
| Törəmə maliyyə aktivləri | (516) | 1,575 |
| Adi səhmlərin buraxılması | - | - |
| Adi səhmlərin geri alınması | - | - |
| Ödənilmiş dividendlər | (4,065) | - |
| **Maliyyələşdirmə fəaliyyətləri üzrə əldə olunan xalis pul vəsaitləri** | **(3,556)** | 1,083 |
| Məzənnə dəyişikliklərinin pul vəsaitləri və onların ekvivalentlərinə təsiri | (2,749) | 2,708 |
| Pul vəsaitləri və onların ekvivalentləri üzrə xalis artım | (59,807) | 32,014 |
| İlin əvvəlinə pul vəsaitləri və onların ekvivalentləri | 286,965 | 254,951 |
| **İlin sonuna pul vəsaitləri və onların ekvivalentləri** | **227,158** | 286,965 |

**19.2 Emitent bir ildən az müddətdə fəaliyyət göstərdiyi təqdirdə bu dövrü əhatə edən audit edilmiş maliyyə hesabatları:** Emitent 1992-ci ildən fəaliyyət göstərir.

**19.3 Maliyyə hesabatları MHBS-ə uyğun hazırlanmadığı təqdirdə, belə maliyyə hesabatları milli uçot standartlarına uyğun olaraq hazırlanmalıdır və ən azı aşağıdakıları özündə əks etdirməlidir:** Emitent maliyyə hesabatlarını MHBS-ə uyğun hazırlayır.

**19.4 Emitentin konsolidasiya olunmuş maliyyə hesabatı (olduqda):** Emitentin hesabatları konsolidasiya olunur. Sənəd bu emissiya Prospektinin 19.1-ci bəndində əlavə edilmişdir.
Link:
https://unibank.az/uploads/documents/1748605474Unibank%202024%20FS%20signed-aze.pdf

**19.5 Emitent son audit edilmiş maliyyə hesabatlarının tarixindən etibarən rüblük və ya yarım illik maliyyə hesabatlarını dərc etdiyi təqdirdə onlar emissiya prospektinə daxiledilməlidir. Rüblük və ya yarımillik maliyyə hesabatları audit edildiyi təqdirdə hesabata audit rəyi əlavə edilməlidir. Rüblük və ya yarımillik maliyyə hesabatı audit edilmədikdə buqeyd edilməlidir:**
Rüblük və ya yarımillik maliyyə hesabatları audit edilmir.

**Mənfəət və zərər haqqında hesabat (audit edilməmiş)**

*min manatla*

| | | **2026-ci il I rüb** | **2025-ci il I rüb** |
|---|---|---|---|
| 1 | Faiz gəlirləri: | 69 578 | 58 026 |
| 1.1 | Müştərilərə verilmiş kreditlər | 65 334 | 55 615 |
| 1.2 | Banklar və digər maliyyə institutlarına verilən kreditlər üzrə faiz gəlirləri | 268 | 123 |

| | | | |
|---|---|---|---|
| 1.3 | Banklar və digər maliyyə institutlarındakı depozitlər üzrə faiz gəlirləri | 1 364 | 287 |
| 1.4 | Ticarət və investisiya qiymətli kağızları üzrə faiz gəlirləri | 1 269 | 1 015 |
| 1.5 | Digər faiz gəlirləri | 1 342 | 987 |
| 1-1 | Faiz borcları üzrə yaradılmış məqsədli ehtiyatlar | - 1 747 | - 1 750 |
| 2 | Faiz xərcləri: | - 29 931 | - 22 075 |
| 2.1 | Depozitlər üzrə faizlər | - 21 737 | - 16 987 |
| 2.2 | Mərkəzi bank və dövlət fondları qarşısında öhdəliklər üzrə faiz xərcləri | - | - |
| 2.3 | Cəlb edilmiş kreditlərə görə ödənilən faizlər | - 5 865 | - 3 895 |
| 2.4 | Pul bazarı alətlərinə ödənilən faizlər | - | - |
| 2.5 | Qiymətli kağızlar üzrə faizlər | - | - |
| 2.6 | Subordinasiya borc öhdəlikləri üzrə faizlər | - 2 002 | - 1 193 |
| 2.7 | Digər faiz xərcləri | - 327 | - |
| 3 | Xalis faiz gəliri/(zərəri) | 37 899 | 34 200 |
| 4 | Qeyri-faiz gəlirləri: | 35 606 | 27 219 |
| 4.1 | Alınan haqq və kommisiya gəliri | 29 579 | 23 883 |
| 4.2 | Xarici valyutadan gəlir/zərər (məzənnə dəyişməsi daxil olmaqla) | 5 869 | 3 165 |
| 4.3 | Qiymətli kağızların satışından və yenidən qiymətləndirilməsindən gəlir/(zərər) | - | - |
| 4.4 | Digər gəlirlər | 158 | 172 |
| 5 | Qeyri-faiz xərcləri: | - 62 884 | - 49 458 |
| 5.1 | Əmək haqqı və digər kompensiya növləri üzrə xərclər | - 23 454 | - 17 814 |
| 5.2 | Ümumi və inzibati xərclər | - 13 916 | - 10 378 |
| 5.3 | Amortizasiya xərcləri | - 3 730 | - 3 018 |
| 5.4 | Digər xərclər | - 21 783 | - 18 248 |
| 6 | Əməliyyat mənfəəti | 10 621 | 11 961 |
| 7 | (Mümkün zərərlər üçün yaradılan məqsədli ehtiyatlar) | - 1 161 | - 8 376 |
| 8 | Mənfəət vergisindən əvvəlki mənfəət(zərər) | 9 459 | 3 585 |
| 9 | Mənfəət vergisi | - 1 400 | - 785 |
| 10 | Dövr üzrə xalis mənfəət | 8 059 | 2 800 |

## Maliyyə vəziyyəti haqqında hesabat (audit edilməmiş)

| | | *2026-ci il I rüb* | *2025-ci ilin sonu* |
|---|---|---|---|
| 1 | **Aktivlər:** | **2 196 864** | **2 132 917** |
| 1.1 | Nağd pul vəsaitləri və ekvivalentləri, o cümlədən bloklaşdırılmış nağd vəsait | 363 794 | 385 363 |
| 1.2 | Ticarət və investisiya qiymətli kağızları | 72 707 | 69 485 |
| 1.3 | Banklar və digər maliyyə institutlarındakı depozitlər | 98 586 | 43 900 |
| 1.4 | Banklar və digər maliyyə institutlarına verilən kreditlər | 11 187 | 6 915 |
| 1.5 | Müştərilərə verilmiş kreditlər | 1 373 787 | 1 304 631 |
| 1.5.1 | *a) istehlak kreditləri* | 650 021 | 647 205 |
| 1.5.2 | *b) biznes kreditləri* | 622 506 | 554 552 |
| 1.5.3 | *c) daşınmaz əmlak kreditləri* | 101 260 | 102 874 |
| 1.5.4 | *d) digər kreditlər* | - | - |
| 1.5.5 | (Mümkün zərərlər üçün yaradılan məqsədli ehtiyat) | 36 694 | 28 414 |
| 1.5.6 | Müştərilərə verilmiş kreditlər (xalis) | 1 337 094 | 1 276 217 |
| 1.6 | Əmlak və avadanlıqlar | 120 371 | 121 529 |
| 1.7 | Qeyri-maddi aktivlər | 23 196 | 24 307 |
| 1.8 | Təxirə salınmış vergi aktivləri | - | - |
| 1.9 | Balansdankənar aktivlər üzrə mümkün zərərlərin ödənilməsi üçün məqsədli ehtiyat | - | - |
| 1.10 | Digər aktivlər | 169 930 | 205 200 |
| 2 | **Öhdəliklər:** | **1 995 338** | **1 940 120** |
| 2.1 | Depozitlər | 1 378 499 | 1 377 937 |

| | | | |
|---|---|---|---|
| 2.1.1 | *a) fiziki şəxslərin depozitləri* | 1 098 683 | 1 089 067 |
| 2.1.2 | *b) hüquqi şəxslərin depozitləri* | 279 816 | 288 870 |
| 2.2 | Mərkəzi bank və dövlət fondları qarşısında öhdəliklər | - | - |
| 2.3 | Kredit təşkilatları və digər maliyyə institutları qarşısında öhdəliklər | 376 919 | 337 232 |
| 2.4 | Borc qiymətli kağızları | 17 393 | 17 293 |
| 2.5 | Cari vergi öhdəlikləri | 3 851 | 8 863 |
| 2.6 | Təxirə salınmış vergi öhdəliyi | - | - |
| 2.7 | Subordinasiya borc öhdəlikləri | 85 019 | 54 419 |
| 2.8 | Digər öhdəliklər | 133 657 | 144 377 |
| 3 | **Kapital:** | **201 526** | **192 796** |
| 3.1 | Səhmdar kapitalı | 138 200 | 138 200 |
| 3.2 | Səhmin qiymətinin dəyişməsindən gəlir (zərər) | 484 | 484 |
| 3.3 | Bölüşdürülməmiş mənfəət | 45 910 | 37 851 |
| 3.4 | Ümumi ehtiyatlar: | 16 932 | 16 261 |
| 3.4.1 | a) kreditlər, lizinqlər və digər tələblər üzrə mümkün zərərlərin ödənilməsi üçün adi ehtiyatlar | 16 932 | 16 261 |
| 3.4.2 | b) əsas vəsaitlərin qiymətləndirilməsindən adi ehtiyatlar | - | - |
| 3.4.3 | c) digər ümumi ehtiyatlar | - | - |
| 4 | **Cəmi öhdəliklər və kapital** | **2 196 864** | **2 132 917** |

## Pul vəsaitlərinin hərəkəti haqqında hesabat (audit edilməmiş)

| | | *2026-cı il I rüb* | *2025-ci il I rüb* |
|---|---|---|---|
| 1 | **Əməliyyat fəaliyyəti ilə əlaqədar pul vəsaitlərinin hərəkəti** | **32 320** | **11 780** |
| 1.1 | Alınmış faizlər | 77 365 | 55 251 |
| 1.2 | Ödənilmiş faizlər | -28 448 | -19 520 |
| 1.3 | Alınmış haqq və kommisiyalar | 28 909 | 23 623 |
| 1.4 | Ödənilmiş haqq və kommisiyalar | -14 933 | -19 305 |
| 1.5 | Xarici valyuta əməliyyatlarından xalis gəlir | 5 716 | 3 215 |
| 1.6 | Xarici valyutada törəmə maliyyə alətlərindən realizasiya olunmuş xalis gəlir | - | - |
| 1.7 | Ödənilmiş əmək haqqı və digər kompensasiyalar | -23 454 | -17 814 |
| 1.8 | Ödənilmiş ümumi və inzibati xərclər | -3 497 | -3 343 |
| 1.9 | Ümidsiz borclardan daxilolmalar | 670 | 260 |
| 1.10 | Alınmış digər əməliyyat gəlirləri | 158 | 471 |
| 1.11 | Ödənilmiş digər əməliyyat xərcləri | -10 165 | -11 057 |
| 2 | **Əməliyyat aktivlərində və öhdəliklərində dəyişikliklərdən əvvəl bank fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | **-40 513** | **-29 576** |
| 2.1 | **Əməliyyat aktivlərindən xalis artım/azalma** | **-80 591** | **-74 490** |
| 2.1.1 | Banklara verilmiş kreditlərdə və depozitlərdə xalis artım (azalma) | -59 029 | 6 349 |
| 2.1.2 | Müştərilərə verilmiş kreditlərdə xalis artım (azalma) | -68 931 | -30 922 |
| 2.1.3 | Digər aktivlərdə xalis artım (azalma) | 47 369 | -49 918 |
| 2.2 | **Əməliyyat öhdəliklərindən xalis artım/azalma** | **40 079** | **44 914** |
| 2.2.1 | Banklardan və digər maliyyə təşkilatlarından cəlb olunan vəsaitlər üzrə xalis artım (azalma) | 70 288 | 33 013 |
| 2.2.2 | Mərkəzi Bank üzrə öhdəliklırdə xalis artım (azalma) | - | - |
| 2.2.3 | Müştərilərin depozitləri və cari hesablarında xalis artım (azalma) | 562 | 620 |
| 2.2.4 | Digər öhdəliklərdəxalis artım (azalma) | -30 771 | 11 281 |
| 3 | **Mənfəət vergisindən əvvəl bank fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | **-8 193** | **-17 797** |
| 3.1 | Ödənilmiş mənfəət vergisi | -1 843 | -1 800 |
| 4 | **Əməliyyat fəaliyyəti ilə əlaqədar generasiya/istifadə edilən xalis pul vəsaitləri** | **-10 036** | **-19 597** |
| 5 | **İnvestisiya fəaliyyəti ilə əlaqədar pul vəsaitlərinin hərəkəti** | **-11 786** | **9 038** |
| 5.1 | Əmlak və avadanlıqların alınması və avans ödənişləri | -1 954 | -493 |

| | | | |
|---|---|---|---|
| 5.2 | Əmlak və avadanlıqların satılmasından daxilolmalar | - | 69 |
| 5.3 | Qeyri-maddi aktivlərin alınması | -6 611 | -1 018 |
| 5.4 | Qeyri-maddi aktivlərin satılmasından daxilolmalar | -0 | - |
| 5.5 | Alınmış dividendlər | - | - |
| 5.6 | Satış üçün nəzərdə tutulan investisiya qiymətli kağızlarının satılması və geri alınması | -3 222 | 10 481 |
| 5.7 | Digər | 1 | - |
| 6 | **İnvestisiya fəaliyyəti ilə əlaqədar generasiya/istifadə olunan pul vəsaitlərinin hərəkəti** | **-11 786** | **9 038** |
| 7 | **Maliyyələşdirmə fəaliyyəti ilə əlaqədar pul vəsaitlərinin hərəkəti** | | |
| 7.1 | Digər borc öhdəliklərinin əldə olunması | - | |
| 7.2 | Digər borc öhdəliklərinin ödənilməsi | 100 | |
| 7.3 | Subordinasiya borclarının əldə olunması | - | |
| 7.4 | Subordinasiya borclarının ödənilməsi | - | - |
| 7.5 | Səhmdar kapitalının buraxılmasından daxilolmalar | - | - |
| 7.6 | Ödənilmiş dividendlər | - | - |
| 7.7 | Digər maliyyə öhdəliklərinin cəlb edilməsi (ödənilməsi) | - | |
| 8 | **Maliyyələşdirmə fəaliyyəti ilə əlaqədar yaradılan/istifadə olunan pul vəsaitləri** | **100** | **-** |
| 9 | **Dövrün əvvəlinə pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri** | **385 363** | **235 848** |
| 10 | **Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentlərində xalis artma/(azalma)** | **-21 722** | **-10 558** |
| 11 | **Məzənnə dəyişikliyinin pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentlərinə təsiri** | **152** | **-51** |
| 12 | **Dövrün sonuna pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri** | **363 794** | **225 239** |

**19.6 Emissiya prospekti audit olunmuş son maliyyə hesabatından doqquz ay sonra hazırlanarsa bu zaman ən azı yarımillik aralıq audit edilmiş və ya audit edilməmiş maliyyə hesabatı prospektə əlavə edilməlidir. Aralıq maliyyə hesabatı əvvəlki maliyyə ilində eyni dövr üzrə müqayisəli hesabatla birgə tərtib edilməlidir:** Audit edilməmiş aralıq maliyyə hesabatları 19.5-ci bənddə təqdim olunur.

**19.7 7 il ərzində hüquqi proseslər barədə məlumat (həllini gözləyən proseslər də daxil olmaqla):** Bitmiş məhkəmə proseslərinin sayı 99 187, cari günə davam edən məhkəmə proseslərinin sayı 2 741.

**19.8 Maliyyə hesabatlarının dərc edilməsindən sonra emitentin maliyyə vəziyyətində baş verən dəyişikliklər barədə məlumat.**
2024-cü ilin sonuna audit edilməmiş maliyyə göstəriciləri ilə müqayisədə 2025-ci ilin yekununda bankın aktivləri 21%, o cümlədən, kredit portfeli 13% artmışdır. Kredit portfeli üzrə artımın 78% biznes kreditləri üzrədir. Müxtəlif maliyyə institutları ilə əməkdaşlığın həcminin artması nəticəsində 135 mln vəsait cəlb olunmuşdur ki, bu da ötən il ilə müqayisədə 53% artım deməkdir. Bankın müştərilər üzrə depozit portfeli 14% artaraq 1.3 mlrd olmuşdur.

## 20. Müqavilələr

**20.1 Emissiya olunan qiymətli kağızlar baxımından qiymətli kağızlar barədə emitentin öhdəliklərini yerinə yetirmək qabiliyyətinə təsir edən emitentin əsas fəaliyyəti ilə bağlı olmayan müqavilələr barədə məlumat:** Belə bir hal mövcud deyil.